Günəş Şərqdən doğur!

❐ № 116 (5397), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 3 iyul 2021-ci il (şənbə)



## Bundan böyük həyəcan olmaz

**Hər il Azərbaycanda yüksək qan təzyiqindən 24 min insan ölür**

(Səh.9)



## Tarif Şurasının səlahiyyətləri parlamentə verilsin

"10 milyonluq xalqın gündəlik yaşayışına təsir edən qərarları 5-6 nəfər yox, xalqı təmsil edən deputatlar qəbul etməlidir"

Parlamentin dünənki iclasında deputat Razi Nurullayev Tarif Şurasının ləğv edilməsini, səlahiyyətlərinin Milli Məclisə verilməsini təklif edib. Deputat qeyd edib ki, Tarif Şurasının qəbul etdiyi qərarlar ciddi sosial narazılıq yaradır, əsaslandırmalar da tutarlı deyil...

(səh.4)

## Ədalətsiz qərarlar insanların evini yıxır



Millət vəkilləri məhkəmə sistemindəki qanunsuzluqlardan gileyləniblər

(səh.3)

# Üzü payıza başqa ştammlar ola bilər




## Harmancı təhlükəsizlik tədbirlərini gücləndirməyə çağırıb

(səh.8)



# Azərbaycan Rusiya üçün Əfqanıstan deyil

"Rus sülhməramlılarının uzun müddətdə Qarabağda qalması ilə bağlı səslənən iddialar yersizdir"

(səh.7)

## ✓ Toylarla bağlı müraciətlərin sayı açıqlanıb

Qeydiyyatdan keçirilən tədbirlərin 336-sı Bakı şəhərinin, digərləri isə bölgələrin payına düşür

(səh.2)

## ✓ Gəncə suya möhtac qalıb

Bir çox məhəllələrdə evlərə gündə cəmi 2 saat su verilir

(səh.8)

## ✓ Qaliblər sırasında 7 idman saytı da var

"İdman jurnalistikasında həqiqi peşəkarların sayı artacaq"

(səh.7)

## ✓ Daha 101 nəfər koronavirusa yoluxub

2 nəfər ölüb, 63 nəfər müalicə olunaraq sağalıb

(səh.2)

# “Əlimizdə ilkin məlumatlar var”

## Ramin Bayramlı: “Üçüncü doza vaksin önəmlidir”

Üçüncü doza vaksin ehtiyacı bu gün bütün dünyada gündəmdədir. Bu, elmi populyar məqalələrdə də müzakirə olunur və eyni zamanda elmi tədqiqatlar da aparılır. Biz bu tədqiqatları yaxından izləyir, özümüz də tədqiqatlar aparırıq.




Bu barədə TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı açıqlama verib. Onun sözlərinə görə, Operativ Qərargah çərçivəsində bu iş üçün tədqiqat aparılan laboratoriya lazım olan bütün reaktivlərlə təchiz olunub:

”Tədqiqatlar zamanı müəyyən ediləcək ki, vaksinasiyadan sonra yaranmış humoral immunitetin, yəni anticisim cavabının effektivliyi nə qədər olacaq. İmmunitetin digər istiqaməti isə hüceyrəvi immunitetdir. Bir çox ölkələrdə aparılan tədqiqatlar zamanı əldə olunan ilkin nəticələr göstərir ki, humoral immunitet zəifləsə də, yəni anticisimlərin cavabı azalsa da, qanda hüceyrəvi immunitet, yaddaş hüceyrələri uzun müddət qalır. Bu, çox yaxşı xəbərdir. Yaddaş hüceyrələri qalırsa, deməli mütəmadi olaraq biz xatırlatma dozası vurmaqla onu təkrar aktivləşdirə bilərik. Beləliklə, hüceyrəvi immunitetlə yanaşı humoral immunitet də yəni anticisim cavabı da aktivləşə və anticisim sintezi güclənə bilər”.

**TƏBİB sədri bildirib ki, ya vaksinin mövcud təsirini gücləndirmək üçün buster doza vaksinasiya tətbiq ediləcək, ya da tamamilə revaksinasiya ehtiyacı yarana bilər:**

”Bir də virusun gələcəkdə hansısa mutasiyası baş verə bilərsə, o zaman mutant ştammlardan da ibarət polivalent vaksinlər hazırlana bilər. Necə ki, qripə qarşı belə vaksinlər var. Hər il mutasiyaya məruz qalır və hər il yeni vaksin çıxır. Bütün bu tədqiqatlar qısa zamanda yekunlaşacaq. Əlimizdə ilkin məlumatlar var. Amma bunların hamısını toplamalıyıq. Elmi məlumatları bizim elmi komitəmizdə müzakirə edəcəyik. Təbii ki, müvafiq qurumlarımız Operativ Qərargah çərçivəsində koordinasiyalı şəkildə çalışacaqlar. Çox yaxın günlərdə qərarlar veriləcək. Ondan sonra müəyyənləşdirəcəyik ki, 2 ”Sinovac” alan əlavə 1 doza da ”Sinovac” alsın, yoxsa digər vaksindən vurdursun. Və ya xəstəliyi keçirənlər neçə müddətdən sonra xatırlatma doza dediyimiz dozadan vurdursunlar”.

**Yegənə**

# Mehriban Əliyeva xərcləri üzərinə götürüb

## Musa Yaqubun qəbirüstü abidəsi hazırlanacaq



**Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərhum Xalq şairi Musa Yaqubun qəbirüstü abidəsinin hazırlanması xərclərini öz üzərinə götürüb.**

”Report” xəbər verir ki, bunu Xalq şairinin qızı Yaqut Yaqubova bildirib.

**Onun sözlərinə görə, iyulun 1-də ailə ilə əlaqə saxlanılaraq məlumat verilib:** ”Bizə deyildi ki, heç nə etməyək, Mehriban xanım bu məsələni üzərinə götürüb. Artıq iş başlayıb”.

# “Bizə dedilər, Qarabağda nə işiniz var?"

## Ərdoğan: ”Bunu deyənlər ya dünyadan xəbərsizdir, ya da düşmən qılıncını çəkir”

**”Bizə nə dedilər? Suriyada, Liviyada, Qarabağda, Aralıq dənizinin şərqində nə işiniz var?”**

”Report” xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Sakaryada Tank fabrikinin kollektivi ilə görüşdə bildirib.

”Bunu deyənlər ya dünyadan xəbərsizdir, ya da düşmən qılıncını çəkir. Biz Liviyada da varıq, Azərbaycanda da varıq, Suriyada da varıq, Aralıq dənizinin şərqində də varıq və olacağıq. Allah qismət etsə, iyulun 20-də Şimali Kipr Türk Respublikasına gedəcəyəm” - Türkiyə prezidenti vurğulayıb.

# Zəngəzur dəhlizi böyük əhəmiyyət daşıyır

## Türkiyəli analitik: “Dəhliz Azərbaycan, Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında yolu azaldacaq”

***Zəngəzur dəhlizi təkcə regionda deyil, həm də onun hüdudlarından kənarda böyük əhəmiyyət daşıyır.***

Trend-in məlumatına görə, bunu türkiyəli analitik Kərəm Tuncel deyib.

O bildirib ki, Zəngəzur dəhlizi Azərbaycan, Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında yolu azaldacaq. Onun sözlərinə görə, dəhliz boyunca boru kəməri çəkilsə, Bakı Naxçıvanı təbii qazla təmin edə biləcək:

”Zəngəzur dəhlizi təkcə Azərbaycanla Türkiyəyə deyil, həm də İran və Gürcüstana da fayda verəcək. Bu dəhliz İran və Rusiya, Ermənistan və Azərbaycan arasında əlaqəni təmin edəcək”.

Analitik əlavə edib ki, Zəngəzur dəhlizinin bu gün hesab olunduğundan daha çox üstünlükləri ola bilər.

# Daha 101 nəfər koronavirusa yoluxub

## 2 nəfər ölüb, 63 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 101 yeni yoluxma faktı qeydə alınıb, 63 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, 2 nəfər ölüb.

Azərbaycanda indiyədək ümumilikdə 336 223 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 330 338 nəfər müalicə olunaraq sağalıb, 4 977 nəfər vəfat edib, aktiv xəstə sayı 872 nəfərdir.

*Ölkədə son sutka ərzində 9851, hazırkı dövrədək isə 3 767 982 test aparılıb.*

# Toylarla bağlı müraciətlərin sayı açıqlanıb

**Qeydiyyatdan keçirilən tədbirlərin 336-sı Bakı şəhərinin, digərləri isə bölgələrin payına düşür**

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən idarə olunan icazə.e-gov.az portalında şənlik mərasimlərinin keçirilməsi məqsədilə məkan sahibləri tərəfindən 4841 əməkdaş və 956 tədbir qeydiyyatdan keçirilib.**



Qeydiyyatdan keçirilən tədbirlərin 336-sı Bakı şəhərinin, digərləri isə bölgələrin payına düşür. Tədbirlər 55 rayon üzrə 259 şadlıq sarayını əhatə edir. Ən çox qeydiyyat sayı 1 iyul tarixində qeydə alınıb. Bu tarixdə 2299 əməkdaş və 383 tədbir üçün icazə alınıb.

Xatırladaq ki, şənlik mərasimlərinin keçirilməsi ilə əlaqədar olaraq icaze.e-gov.az portalı 26 iyun tarixindən etibarən EHİM tərəfindən aktivləşdirilib.

Şənlik mərasimi keçirilən məkanın və ya müəssisənin sahibi həmin obyekt daxilində fəaliyyət göstərən tədbir zalları, onların tutumu və çalışan işçi heyət (müvəqqəti işə cəlb edilmiş işçilər daxil olmaqla) barədə məlumatı portala daxil etməlidir. Məkan sahibi tərəfindən əməkdaşlar haqqında məlumatlar portala daxil edildikdən sonra qurumda COVID-19 pasportu olan əməkdaşların faiz göstəriciləri haqqında məlumat əsas səhifədə əks olunur. 2021-ci il iyulun 1-dən etibarən COVID-19 pasportu tələb olunan iş və xidmət sahələri işçilərinin azı 80 faizinin COVID-19-a qarşı birinci doza peyvənd olunması və ya COVID-19-a qarşı immunitet sertifikatına malik olması, 2021-ci il 1 avqust tarixindən etibarən isə COVID-19 pasportunun olması tələb olunur.

Həmçinin şənlik mərasiminin keçirilməsi tarixinə ən azı 5 gün qalmış mərasimin keçirilmə tarixi, başlama və bitmə vaxtı (saat 00:00-dan gec olmamaqla), qonaq sayı haqqında məlumatlar icaze.e-gov.az portalına əlavə olunmalıdır. Bu zaman, həmçinin məkan sahibi ilə toy sahibi arasında ”Şənlik mərasimlərində koronavirus infeksiyasının (COVID-19) idarə olunması ilə bağlı metodiki göstərişlər”də müəyyən edilmiş tələblərə əməl edilməsinə dair iltizam sənədi də doldurularaq portala yüklənilməlidir.

**Aynurə**

# Avropa İttifaqının Komissarı gələn həftə Azərbaycana səfər edəcək

**Avropa İttifaqının (Aİ) Genişlənmə və Qonşuluq siyasəti üzrə Komissarı Oliver Varhelyi gələn həftə Azərbaycana səfər edəcək.**

APA-nın xəbərinə görə, Oliver Varhelyi özünün ”Twitter” hesabında iyulun 6-9-da Gürcüstan, Azərbaycan və Ermənistanda səfərdə olacağını bildirib.

O. Varhelyi Aİ-nin regionla bağlı İqtisadi və İnvestisiya Planını təqdim edəcək.

Komissarın Azərbaycanda Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, iqtisadiyyat naziri Mikayıl Cabbarov, xarici işlər naziri Ceyhun Bayramov və digər şəxslərlə görüşləri nəzərdə tutulur.

# Eldar Həsənov DTX-nin hospitalına köçürülüb



**Eldar Həsənov stasionar qaydada müayinə, müalicə və cərrahiyyə əməliyyatları aparılması üçün dünən Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Hərbi Hospitalına köçürülüb.**

APA-nın xəbərinə görə, bu barədə E. Həsənovun vəkili Cavad Cavadov bildirib.

Müdafiə etdiyi şəxsin səhhətində problemlər olduğunu qeyd edən vəkil E. Həsənovun əməliyyat oluna biləcəyini söyləyib.

Dünən Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib. Gündəliyə daxil edilən 10 qanun layihəsinin müzakirəsi ilə yanaşı, cari məsələlərlə bağlı da irad və təkliflər səsləndirilib. Parlament sədri Sahibə Qafarova Macarıstan səfəri barədə qısaca məlumat verib. Sədr bildirib ki, Macarıstan tarixi köklərinə əsaslanaraq türkdilli ölkələrlə əlaqələrinin inkişafına xüsusi önəm verir:

"Bu ölkə ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Əməkdaşlığın dərinləşdirilməsinə hər iki tərəfdən böyük diqqət göstərilir. Türk Şurasının qarşıya qoyduğu əsas vəzifələrdən biri də beynəlxalq terrorizmə qarşı mübarizədir. Macarıstanda keçirdiyimiz hər görüşdə belə bir fikir ana xətt kimi keçib: - Ermənistan 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlayıb. BMT-nin 4 qətnaməsi kağız üzərində qalıb. Nəhayət, ötən il Azərbaycan bu sənədləri təmin edib və ərazi bütövlüyünə nail olub. Eyni zamanda bir daha beynəlxalq ictimaiyyəti Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etməyə çağırdım. Ermənistan sərhədlərin delimitasiya məsələsində də qeyri-konstruktiv mövqe sərgiləyir".

# Ədalətsiz qərarlar insanların evini yıxır

## Millət vəkilləri məhkəmə sistemindəki qanunsuzluqlardan gileylənibələr



**“İcra başçılarının mühakiməsi məhkəmə sistemi üçün də sınaq olacaq”**

**Millət vəkili Zahid Oruc deyib ki, icra hakimiyyəti rəhbərlərinin mühakiməsi məhkəmə sistemi üçün də sınaqdır.** Deputat bildirib ki, müxtəlif qanunsuz əməllərə görə son iki ildə həbs edilən İcra Hakimiyyəti başçılarının məhkəmə prosesi başlayır: ”Müstəqil dövlətçilik tariximizdə müqayisəsi olmayan sayda mərkəzi və yerli hakimiyyət nümayəndələrinin mühakiməsi böyük ictimai diqqət qazanmaqla məhkəmə sisteminin özü üçün də mühüm sınaqdır. Hakimlərin dövlət və xalq qarşısında düzgün və qanuni qərarları yeni Konstitusion islahatlar üçün əsas ola bilər. Ona görə də biz sıradan, adi cinayət hadisələrini deyil, 21-ci əsrdə bir millətin müstəqil yaşamaq, özünüidarəetmə orqanları formalaşdırmaq qabiliyyətini sübuta yetirən və gələcək kadr quruculuğuna birbaşa təsir göstərən xalq mühakiməsindən danışırıq”. Z.Oruc qeyd edib ki, qanun qarşısında hamının bərabərliyini təmin etmək, yalnız sadə vətəndaşların, yaxud kiçik və orta rütbəli məmurların deyil, özünü toxunulmaz sayanların üzərində də qanunun aliliyini nümayiş etdirmək, ən başlıcası, dövlətin ədalətinə ictimai inamı qoruyub saxlamaq Prezidentin yeni siyasətinin ana xəttini təşkil edir.

**“Dövlət ərköyün uşaq kimi davrana bilməz”**

**Deputat Razi Nurullayev vurğulayıb ki, bu yaxınlarda İmişli bazarı yandı və rayon ciddi fəlakət yaşadı. İndi zərər çəkənlər kompensasiya tələb edir:** ”Hökumət düşünür ki, mən niyə ödəniş etməliyəm? Bazarın yiyəsi bəlli, pul qazanan bəlli. Xüsusən ”sığorta etdirin!” xəbərdarlığını da etmişdilər. Belə çıxır ki, ”Sığorta edin demişdik, etmədilər, indi çərə edin, cəhənnəmə edin, açılın başımızdan” deyirlər. Dövlət ərköyün uşaq kimi davrana, nəyisə boş verə və məsuliyyəti də vətəndaşların üzərinə qoya bilməz. Əgər biznes sahəsinin sığortası yoxdursa və fəlakət halında yük dövlətin üzərinə düşəcəksə, dövlət də zəhmət çəkib önləyici addımlarını atsın. Sığortası olmayan bazar, ticarət mərkəzi işləməməlidir. İşləməsinə icazə verilibsə, bu boşluq yaradılıbsa, məsuliyyət vətəndaşın yox, dövlətindir. Onun üçün də İmişlidə zərər çəkənlərin də yükü dövlətin boynundadır. Onları qəbul edib dinləsinlər. Bundan sonra oxşar fəlakətləri önləmək üçün sığorta sistemi məcburi olmalı, işlək vəziyyətə gətirilməli və sığorta şirkətlərinə də müştəri məmnuniyyəti tələbləri ciddi şəkildə sərtləşdirilməlidir. Çıxış yolu budur!”.

**“Hakim haqlının gözünün içinə baxa-baxa ədalətsiz qərar qəbul edir”**

**Razi Nurullayev ”Mülki Prosessual Məcəllə”yə və ”Məhkəmə-Hüquq Şurası” qanun layihəsinə təklif edilən dəyişiklik müzakirə olunarkən bildirib ki, 9.3-cü maddəsinə görə məhkəmə tərəflərin çəkişmə prinsipinə əsasən müzakirə etdiyi dəlillərlə, onların verdiyi izahatlarla, sənədlərlə əsaslandırmalıdır.** Məhkəmə qərarını özünün qulluq mövqeyinə görə irəli sürdüyü hüquqi dəlillərlə əsaslandıra bilməz: ”Xeyli məhkəmə işlərindən faktlar gətirərəm ki, bax, bu cür yanaşma haqlı insanın evini yıxıb. Bu maddə məhkəmə hakiminə təzyiq vasitəsidir və presedent hüququn yaranmasını əngəlləyən addımdır. Məhkəmə ədaləti üzə çıxarmalıdır, haqlı tərəfi müəyyən etməlidir. Məhkəmələr isə əsasən sənədlərə və təqdim olunmuş faktlara baxır. Sizi əmin edirəm ki, hakim bilsə də ki, tərəflərdən biri yüz faiz haqlıdır, haqlının gözünün içinə baxa-baxa ədalətsiz qərar qəbul edir. Niyə? Çünki başını ağrıtmaq istəmir. Ona deyirlər ki, sən qabağına qoyulan sənədlərə bax, saxta faktlara inan, daha özünü yorub ədaləti üzə çıxarma.

**“Nuru Paşaya heykəl qoyulmalıdır...”**

**Milli Məclisin üzvü Məlahət İbrahimqızı bildirib ki, bir neçə aydan sonra yenidən Bakının işğaldan azad olunması qeyd olunacaq:** ”2018-ci ildə Azərbaycanda Türkiyə Prezidentinin iştirakı ilə Bakının işğaldan azad olunmasının 100 illiyi münasibətilə parad keçirdik. Bakının azad olunmasında müstəsna xidmətləri olmuş Nuru Paşa və onun ordusuna bu günə qədər də abidə qoyulmayıb. Bununla bağlı icra strukturları heç bir məlumat vermir. Bu, Türkiyə-Azərbaycan qardaşlığına laqeyd yanaşmadır. Daha bir təklifim seçildiyim Nəsimi rayonu ilə bağlıdır. 4-cü mikrorayonda 1973-cü ildə Ulu Öndərin açdığı uşaq kitabxanası var. Çox təəssüf ki, kitabxana darmadağın vəziyyətdədir. Kitabxanada çox nadir kitablar var. Mədəniyyət Nazirliyinə müraciət edirəm ki, bu məsələ tezliklə həllini tapsın”.

**“İnsanların cibinə girmək olmaz”**

**Deputat Elşən Musayev isə AZAL-a etirazını bildirib. O deyib ki, Zaqatala hava limanının hər şeyi - müdiri, bağbanı, işçiləri və s. var, təkcə təyyarəsi yoxdur:** ”İnsanları təyyarə üzünə həsrət qoymaq olmaz. AZAL qiymətləri azaltmalıdır. Biletlərlə insanların cibinə girmək olmaz. Bu qurumun adı belə bunu tələb edir - Az al. Bundan əvvəlki iclasda həmkarım Qənirə Paşayeva da bu məsələni gündəmə gətirmişdi”.

**“Qiymətlərin qalxmasından xüsusilə pensiyaçılar və aztəminatlı ailələr əziyyət çəkir”**

**Parlament üzvü Qüdrət Həsənquliyev deyib ki, bu gün biz pensiyaçıları düşünməliyik. Qiymətlər qalxır, qazın qiyməti də qalxıb:** ”Qiymətlər qalxanda bunun real səbəbi deyilmir. Çalışırıq, bunu əsaslandıraq ki, sanki camaatın xeyrinədir. Adını qoyuruq ki, bu, idarəetmənin təkmilləşdirilməsi deməkdir. Amma hansı məqsədlə edilir edilsin, qiymət qalxırsa, xüsusilə pensiyaçılar, aztəminatlı ailələr bundan əziyyət çəkir. Buna görə də Milli Məclisin Sosial siyasət komitəsi bu məsələyə münasibət bildirməlidir. Mən də razıyam ki, bu tipli məsələlərə dair qiymətlər monopolist dövlət qurumları deyil, parlament tərəfindən müəyyənləşdirilməlidir”.

**“Cərimələr təkcə vəkillərə deyil, işə mane olan bütün tərəflərə şamil ediləcək”**

**Milli Məclisin vitse-spikeri Əli Hüseynli Mülki Prosessual Məcəlləyə təklif edilən dəyişikliyin müzakirəsi zamanı deyib ki, burada əsas narazılıq 174-cü maddə ilə bağlıdır.** Onun sözlərinə görə, irad ondan ibarət olub ki, cərimə sanksiyası nəzərdə tutulur: ”Məcəllənin 120-ci maddəsi bunu nəzərdə tuturdu, məbləğ isə qeyd edilmirdi. Ancaq biz cəriməni 500 manatadək məbləğdə ifadəsi ilə konkretləşdiririk. Bu, 100 manat da ola bilər, 150 manat da. Bundan əvvəl 120-ci maddəyə əsasən, vəkil 1000 manat məbləğində də cərimə oluna bilər. Lakin bu, çox nadir hallarda baş verir. Çünki vəkillər ədalət mühakiməsinin subyektidir. İddia olunurdu ki, nə üçün prokurorlar yoxdur. Əslində, mülki prosesdə prokurorların iştirakı nadir hallarda olur. Amma bu ifadənin daxil edilməsi ilə bütün tərəflər məsuliyyətə cəlb oluna biləcək. Yəni bu, təkcə vəkillərə yönəlik addım deyil”.

**“Bu ilin payızında məhkəmə hakimlərinin sayı kifayət qədər artmış olacaq”**

**Vitse-spiker deyib ki, Prezidentin müvafiq fərmanında hakimlərin sayının artırılması nəzərdə tutulur.** Bu, hakimlərin iş yükünün azaldılması məqsədi daşıyır: ”Fevral ayında 44 yeni hakim təyin olunub. 44 hakim hazırlıq mərhələsindədir. Hakimlərin seçilməsi prosesi davamlı şəkildə gedir. Ümumilikdə, Prezidentin fərmanının tətbiqi ilə bağlı 2 il ərzində çox ciddi işlər gedir. Bu ilin payızında hakim korpusunun sayı kifayət qədər artmış olacaq”.

**“Məhkəmələr də cərimələnsin..”**

**Deputat Siyavuş Novruzov məhkəmələrin də cərimələnməsini təklif edib:** ”Məhkəmə cərimələnmə siyasətində maraqlı olacaq. Çünki bu cərimələr onun işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldiləcək. İkinci problem düzgün qərar çıxarmamaqla bağlıdır. Bunun ziyanı vətəndaşa dəyir. Buna görə məhkəmələr cərimələnməlidir. Azərbaycandan AHİM-ə gedən işlərin çoxunda Azərbaycan hökuməti məhkəmənin düzgün qərar çıxarmamasına görə cərimə ödəyir. Əslində məhkəmə insanların haqlarını müdafiə etməlidir. Bu gün biz qəbul etdiyimiz bu layihə ilə yalnız məhkəmənin haqlarını müdafiə edirik, vətəndaşın yox...”

**İsmayıl Qocayev**

# Yeni iş yerləri açılacaq

## “Ələt İqtisadi Zonası Azərbaycan üçün texnologiya və innovasiyanın cəlb edilməsi baxımından da vacib hesab olunur”



**Xəbər verdiyimiz kimi, iyunun 1-də Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının təməlqoyma mərasimində iştirak edib. Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.**

Bildirilib ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektar olacaq. İqtisadi zonanın ümumi sahəsinin 60 hektarında layihələndirilmə artıq başa çatıb və inşaat işləri başlayıb, bütün infrastrukturun yaradılması üçün zəruri addımlar atılıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ölkəmizin ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində çox vacib layihələr icra olunub. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanda bu proseslər uğurla davam edir. Ələt Azad İqtisadi Zonasının yaradılması bunun bariz nümunəsidir.

**Millət vəkili, iqtisadçı Vüqar Bayramov ”Şərq”ə açıqlamasında söyləyib ki, Ələt İqtisadi Zonası Azərbaycanda qeyri-neft sektorunun inkişafı və iqtisadiyyata investisiyanın cəlb edilməsi baxımından vacib layihədir:** ”Ələt İqtisadi Zonasının əsas üstünlüyü ondan ibarətdir ki, burada iqtisadi zona ilə bağlı xüsusi qanun qəbul edilib. Yeni Ələt İqtisadi Zonası praktiki olaraq beynəlxalq hüquqla tənzimlənir və hətta bu, hasilatdan pay bölgüsünə uyğun statusun verilməsi deməkdir. Bu da sərmayənin cəlb edilməsi, xüsusən də aparıcı xarici şirkətlərin Ələt İqtisadi Zonasına investisiya qoyuluşunun təşviqi baxımından vacibdir”.

**Deputat vurğulayıb ki, Azərbaycan hökuməti tərəfindən Ələt İqtisadi Zonasında ilkin infrastruktur formalaşdırılacaq:** ”Bu, xarici investisiyanın cəlb edilməsi baxımından vacibdir. Gözlənilir ki, Ələt Azad İqtisadi Zonası xüsusən də qeyri-neft məhsullarının istehsalı baxımından yeni sərmayənin cəlb edilməsinə imkan verəcək. Bu, istehsal edilən məhsulların bir qisminin daxili, bir qisminin xarici bazara çıxarılmasını təmin edəcək. Ələt İqtisadi Zonası həm də Azərbaycan üçün texnologiya və innovasiyanın cəlb edilməsi baxımından da vacib hesab olunur. Güman edilir ki, bu, yeni iş yerlərinin, xüsusən ixtisaslı kadrların işlə təminatına müsbət təsir edəcək. İqtisadi Zonanın yerləşmə coğrafiyası elədir ki, həmin zonada istehsal olunan məhsulların ixrac baxımından kifayət qədər böyük üstünlükləri var. Ona görə də zonada istehsal edilən məhsulların ixrac olunacağı və bununla da Azərbaycanın qeyri-neft ixracının artacağı gözlənilir. Bu baxımdan Ələt İqtisadi Zonası qeyri-neft sektorunda istehsal edilən məhsulların artmasına və bu sektorun inkişafına zəmin yaradacaq. Beləliklə, daxili bazara daha çox yerli istehsal edilən məhsulların çıxarılması, Azərbaycanın qeyri-neft ixracının artmasına imkan olacaq. Nəzərə alsaq ki, Ələt paytaxta yaxın ərazidir. Təbii ki, bu da ixtisaslı kadrların daha yüksək əmək haqqı olan işlə təminatına imkan verəcək”.

**Yeganə Bayramova**



## Tarif Şurasının səlahiyyətləri parlamentə verilsin

### “10 milyonluq xalqın gündəlik yaşayışına təsir edən qərarları 5-6 nəfər yox, xalqı təmsil edən deputatlar qəbul etməlidir”

**Parlamentin dünənki iclasında deputat Razi Nurullayev Tarif Şurasının ləğv edilməsini, səlahiyyətlərinin Milli Məclisə verilməsini təklif edib. Deputat qeyd edib ki, Tarif Şurasının qəbul etdiyi qərarlar ciddi sosial narazılıq yaradır, əsaslandırmalar da tutarlı deyil:**

”Dövlət müəssisələrinə külli miqdarda büdcə vəsaiti ayrılır və onlar da səmərəli işləmir. Dövlət onların götürdüyü kreditləri hələ 20-30 il bundan sonra da ödəyəcək. Yəni bizdən sonra gələn nəsil də onların kreditlərini ödəyəcək. Səmərə və effektivlik varmı? Bahalaşma ona görədir ki, məhz ayrılan dotasiyalara görə əmək haqlarını və pensiyaları qaldırmaq olmur. Məhz ona görədir ki, uşaq pulu adı gələndə aidiyyəti vəzifəli şəxslər qulaqlarını tutur”.

**Parlament üzvünün qənaətincə, bu qərarlar 20 il öncə verilməliydi:** ”Əgər populyar olmayan qərarlar 20 il öncə verilsəydi, vətəndaşlar fərqli və sosial cəhətdən rifah halında yaşayardılar. Yüz milyonlarla vəsait və kreditlər havaya sovrulmazdı, oğurlanmazdı və xaricə daşınmazdı. Xalq gözünü neft şirkətinə dikib, o belə dövlət büdcəsindən dotasiya alır. Belə yanaşma dünyada varmı? AZAL büdcənin pulu və dövlətin zəmanəti ilə təyyarə alır, biz də basa-basa gedib Tiflisdən uçuruq. 10 milyonluq xalqın hər bir ailəsinin və fərdinin gündəlik yaşayışına təsir edən qərarları 5-6 nəfər yox, xalqı təmsil edən Milli Məclis üzvləri qəbul etməlidir. İnanıram ki, bu qərarın mənfi təsirini azaltmaq üçün hökumət tərəfindən əlavə sosial qərarlar və paketlər hazırlanacaq. Milli Məclis də bu yöndə lazımi müzakirələri keçirməlidir”.

**İsmayıl**



## Azərbaycan Yazıçılar Birliyində kadr təyinatları olub

**Azərbaycan Yazıçılar Birliyində kadr təyinatları olub.**

APA-nın məlumatına görə, Rauf Aslanov Azərbaycan Yazıçılar Birliyi sədrinin baş müşaviri, yazıçı-tərcüməçi Vaqif Əlixanlı AYB Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, yazıçı Pərvin Nurəliyevaya isə ”Qobustan” jurnalının baş redaktoru vəzifəsinə təyin edilib.

”Dünya ədəbiyyatı” dərgisinin baş redaktoru, ədəbiyyatşünas Seyfəddin Hüseynli isə eyni zamanda Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədrinin müavini təyin edilib.

## Afaq Bəşirqızı sağalıb

**Bir müddət əvvəl səhhətində problem yaranan Xalq artisti Afaq Bəşirqızı sağalıb.**

Bu barədə ”Report”a Xalq artisti özü məlumat verib.

”Özümü çox yaxşı hiss edirəm, səhhətimdə hər şey qaydasındadır”- o bildirib.

# Qırğızıstan inkişafdan qalmaq istəmir

## Türk dövlətlərindən ölkəmizə səfərlərin sayı artıb

Qırğızıstanın Xarici işlər naziri Ruslan Kazakbayev Azərbaycana səfər edib. Səfər çərçivəsində nazir azərbaycanlı həmkarı ilə mətbuat konfransı keçirib. Konfransda çıxış edən nazir bildirib ki, Qırğızıstan Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərindən istifadə də maraqlıdır. O qeyd edib ki, Qırğızıstan Mərkəzi Asiya-Cənubi Qafqaz regionlararası platformasının yaradılmasını təklif edir:

”Strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının vaxtı çatıb. Biz yaxın perspektivdə 5+3 formatında Mərkəzi Asiya-Cənubi Qafqaz regionlararası platformasının yaradılmasını təklif edirik. Biz, həmçinin Qırğızıstan-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında müasir münasibətlərin əsasını beynəlxalq miqyasda görkəmli şəxsiyyət, müasir Azərbaycanın qurucusu Heydər Əliyev qoyub”.

**Mövzu ilə bağlı ”Şərq”ə açıqlama verən Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov deyib ki, Azərbaycanın Mərkəzi Asiya respublikaları ilə əlaqələri intensiv surətdə inkişaf etməkdə davam edir.** O vurğulayıb ki, bu əlaqələr günbəgün geniş xarakter alır: ”Bildiyimiz kimi, Mərkəzi Asiya ilə Cənubi Qafqaz regionları arasında platformanın yaradılması da təklif olunur. Qeyd edim ki, Azərbaycanın Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan ilə yaxşı münasibətləri var. Bu dövlətlərin əksəriyyəti türkdilli dövlətlərdir. İkitərəfli münasibətlərlə yanaşı Türk Şurası kontekstində də münasibətlər formalaşmışdır. Və bu təşkilat türkdilli dövlətləri etnik milli, dini-mənəvi bağlarla yanaşı, həm də siyasi, iqtisadi, hərbi, ideoloji, mədəni müstəvidə də birləşdirmək imkanına malikdir. Və bu təşkilatın geniş imkanlarından gələcəkdə də istifadə olunacaq. Digər önəmli xüsus da ondan ibarətdir ki, hazırda iqtisadi sahədə priotitetlərin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Burada Mərkəzi Asiyadan gələn yüklərin Xəzər dənizi vasitəsilə Azərbaycanın da geniş strateji geo imkanlarından istifadə etməklə, Qərbə nəqli nəzərdə tutulur. Bu istiqamətdə Zəngəzur dəhlizinin istifadəyə verilməsi Mərkəzi Asiya respublikaları üçün də geniş prioritetlər formalaşdırır. Buna görə də artıq Mərkəzi Asiya dövlətlərinin müxtəlif rəsmilərinin ölkəmizə səfərləri müşahidə olunur”.



### “Zəngəzur dəhlizinin istifadəyə verilməsi Mərkəzi Asiya respublikaları üçün də geniş prioritetlər formalaşdırır”

**İ.Hüseynov vurğulayıb ki, burada digər önəmli məqam isə Vətən müharibəsindən bir müddət sonra Azərbaycan ilə Türkmənistan arasında dostluq müqaviləsinin imzalanmasıdır:** ”Bu da karbohidrogen ehtiyatlarının birgə işlənməsi, mənimsənilməsi istiqamətində Azərbaycan ilə Türkmənistan arasında prioritetləri formalaşdırıb. Hazırkı dönəmdə də Qırğızıstan ilə əlaqələrin inkişafı və bu sahədə müzakirələrin aparılması önəmli bir məsələdir”.

**Aynurə Pənahqızı**

# "Müsabiqələr köhnə ənənələrin davamı kimi qiymətləndirilə bilməz"

## Əhməd İsmayılov: "Məqsədimiz media subyektlərinin iqtisadi müstəqilliyini təmin etməkdir"

"MEDİA tərəfindən çap mediası və onlayn media subyektləri ilə bağlı müsabiqənin nəticələri açıqlandı. Bu müsabiqələrin təşkil olunmasının məqsədi peşəkar jurnalistikanın formalaşmasına dəstək verməkdir. Müsabiqələr davamlı olacaq".

**Bunu Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov mətbuat konfransında deyib. Onun sözlərinə görə, budəfəki müsabiqələrdə bir sıra yeniliklər tətbiq olunub:** "Media subyektlərinin özü tərəfindən bununla bağlı təkliflər almışdıq. Buna görə də qərara gəldik ki, MEDİA tərəfindən nəinki çap, həm də onlayn media subyektləri üçün də bu cür müsabiqələr keçirilsin. Çap mediası subyektlərinin dəstəklənməsi həm də qəzet redaksiyasının saytının da dəstəklənməsi idi. Onlayn media subyektlərinin dəstəklənməsi üzrə layihəmiz ümumiyyətlə yenilik idi. Bu layihələrin həyata keçirilməsi məhz media subyektləri ilə görüşdə verilən təkliflər əsasında təşkil olundu. MEDİA tərəfindən ilk dəfə idman jurnalistikası subyektlərinə də dəstək layihəsi həyata keçirildi. Bu da idman jurnalistikası sahəsində çalışan həmkarlarımızla görüşdə onlar tərəfindən səslənən fikirlər əsasında keçirilib".



**"Tələblərə riayət edilməsinə MEDİA tərəfindən xüsusi nəzarət olunacaq"**

*Ə.İsmayılov vurğulayıb ki, bundan öncə Azərbaycanda onlayn media subyektləri üçün müsabiqə keçirilməyib:* "Əvvəllər çap mediası üçün müsabiqələr keçirilib. Lakin indiki şərtlər əvvəlkindən tamamilə fərqlidir, yəni, bu müsabiqələr əvvəlki ənənənin davamı deyil. Biz həm qəzetin dizaynını, həm də qəzetin məzmununu dəyərləndirmişik. Köhnə ənənələrdən ciddi fərqlərdən biri də odur ki, redaksiyalara göstərilən maliyyə yardımlarının xərc istiqamətləri artıq müəyyən edilib. Həmin tələblərə riayət edilməsinə MEDİA tərəfindən xüsusi nəzarət olunacaq. Bu müsabiqələr heç də köhnə ənənələrin davamı kimi qiymətləndirilə bilməz".

**"Ayrılmış maliyyənin təyinatı üzrə istifadə olunmaması müəyyən olunarsa, müqavilə ləğv ediləcək"**

*MEDİA-nın icraçı direktoru qeyd edib ki, ayrılmış maliyyənin təyinatı üzrə istifadə olunmaması müəyyən olunarsa, müqavilə ləğv ediləcək:* "Müsabiqə nəticələri bizə ətraflı monitorinqlər keçirmək imkanı verdi: "Müsabiqə qalibləri ilə müvafiq müqavilə imzalanandan sonra növbəti 6 ay ərzində onlara maliyyə yardımı ayrılacaq. Bu, medianın iqtisadi müstəqilliyinə dəstək məqsədi daşıyır. Biz maliyyə yardımlarının xərclənməsinə nəzarət edəcəyik. Monitorinqlər nəticəsində onlara göstərilmiş dəstəyin təyinatı üzrə istifadə olunmaması müəyyən olunarsa, müqavilə ləğv ediləcək. Göstərilən dəstək layihələri media subyektlərinin bütün büdcəsini maliyyələşdirə bilməz".

**"MEDİA-nın layihələri şəffaflıq prinsipi üzərində qurulub"**

*Əhməd İsmayılov bəyan edib ki, MEDİA-nın layihələri şəffaflıq prinsipi üzərində qurulub:* "Biz bu müsabiqələri keçirərkən medianın ehtiyaclarını qiymətləndiririk. Müsabiqədə qalib olmuş media subyektlərinin 3 əməkdaşının maaşı MEDİA tərəfindən qarşılanır, 600 manat onların əməkhaqqısına yönəldilməlidir. Biz bunu ayın sonunda hesabatda görməliyik. MEDİA tərəfindən həyata keçirilən layihələr şəffaflıq prinsipi üzərində qurulub. Sırf şəffaf şəkildə həmin məbləğ jurnalistlərin maaş kartına oturmalıdır. Müsabiqələr stimul xarakteri alıb".

**"Dəstək layihəsi media subyektinin bütün büdcəsini əhatə edə bilməz"**

*Ə.İsmayılov bildirib ki, biz artıq MEDİA-nın bütün subyektlərini və sferalarını əhatə edən layihələrlə çıxış edəcəyik:* "Müsabiqələr agentliyin maliyyə imkanları çərçivəsində keçirilir. Maliyyə imkanlarımız artırılarsa, məbləğ məsələsinə yenidən baxıla bilər. Biz bunun həm iqtisadi, həm də hüquqi tərəflərini araşdırıb qərar qəbul etməliyik. Dəstək layihəsi media subyektinin bütün büdcəsini əhatə edə bilməz. Bu, media subyektlərinin iqtisadi müstəqilliyi prinsipinə ziddir. Bizim məqsədimiz məhz media subyektlərinin iqtisadi müstəqilliyini təmin etməkdən ibarətdir".

**"Jurnalistlər vəsiqə almaq üçün MEDİA-ya müraciət edə biləcəklər"**

*Ə.İsmayılov deyib ki, bütün media subyektləri həmin media reyestrində qeydiyyata alınacaq:* "Bu, informativ reyestr olacaq. Media subyektləri fəaliyyətə başlamazdan öncə bu reyestrə özləri haqqında məlumatlar verəcək, qeydiyyata alınacaqlar. Jurnalistlər isə jurnalist vəsiqəsi almaq üçün MEDİA-ya müraciət edəcəklər. Bu, könüllü əsaslıdır. Hər hansı jurnalist vəsiqə almaq üçün müraciət etsə, müraciət tərəfimizdən dəyərləndiriləcək. Həmin jurnalistlər media reyestrinin bir bölməsində qeydiyyata alınaraq, jurnalist vəsiqəsi ilə təmin ediləcək".

**"Görülən bütün işlər media sahəsində islahatların tərkib hissəsidir"**

**Medianın İnkişafı Agentliyinin (MEDİA) Media subyektləri və jurnalistlərlə iş şöbəsinin müdiri Natiq Məmmədli deyib ki, görülən bütün işlər media sahəsində islahatların tərkib hissəsidir:** "MEDİA tərəfindən keçirilən müsabiqələrə maraq çox böyükdür. Nəticələr sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Bu müzakirələrdə təkcə jurnalistlər iştirak etmir. Bu tədbirlər ilin sonuna kimi davam edəcək. Çoxlu sayda yenilik var. Biz bu müsabiqələr haqqında danışarkən dəfələrlə "ilk dəfə" sözünü istifadə edirik. İlk dəfə onlayn media müsabiqələrə cəlb edilib. Bu gün idman jurnalistikası dövlətin dəstəyini qazanıb. Əvvəllər yalnız qəzetin məqaləsi oxunub, qəzetə qiymət verilirdi. İndi isə qəzetin bütün komponentləri nəzərə alınaraq qiymətləndirilir. Bu il iyul ayının 22-də fərdi jurnalist müsabiqəsinin nəticələri açıqlanacaq. Bu, müsabiqədir. Müsabiqədə qalib gələn tərəf olur, qalibləri təbrik etmək lazımdır. Müsabiqədə hədəfinə çatmayanlara da biz uğurlar arzulayırıq. Bu, davam edən prosesdir. İstəyimiz ondan ibarətdir ki, Azərbaycanın bütün jurnalistləri dövlətin dəstəyindən faydalansın".

**İsmayıl**

# Siyasi təzyiq aləti qüvvəsindədir

## "İsgəndər" müamması "Damokl qılıncı" kimi daim Rusiyanın başı üzərində olacaq"



**"Ciddi müəmmalar var. Xüsusilə Ermənistandakı seçkilər ərəfəsində Nikol Paşinyanın səsləndirdiyi bəyanatlar həmin müəmmaları bir az da artırır". Bu sözləri Şuşada qalıqları tapılan "İsgəndər-M" raketi ilə bağlı "Şərq"ə danışan Turab Rzayev deyib.**

Ekspertin fikrincə, istənilən halda günahkar Rusiyadır: "Paşinyan erməni cəmiyyətinə çatdırmaq istəyirdi ki, bu, onun iradəsi daxilində deyil. Həmçinin raketlərin lazımi effekt vermədiyi barədə də danışılırdı. İndi Moskva bizi inandırmalıdır ki, bu işdə "əli yoxdur". Hərçənd yenə sual meydana çıxır: elə isə satışı qadağan olunan silahın İrəvanda nə işi var? Başqa bir variant isə raketin Gümrüdəki hərbi bazadan atılmasıdır. Yəni bütün "oxlar" Kremli göstərir. Cavab isə hələ də yoxdur. Və biz konkret açıqlama almayanadək məsələni zaman-zaman ictimailəşdirəcəyik".

**T.Rzayevin sözlərinə görə, biz bu məqamdan siyasi təzyiq aləti kimi yararlana bilərik:** "İsgəndər" müamması "Damokl qılıncı" kimi daim Rusiyanın başı üzərində olacaq. Rəsmi Bakı lazımi anda məsələni gündəmə gətirəcək. Səsləndirilən bəyanatlar göstərir ki, şimal qonşumuz problemin qabardılmasını istəmir. İndi əsas məsələ bizim əlimizdəki "kozır"dan nə qədər səmərəli istifadə edəcəyimizdir. Bu isə konkret siyasi vəziyyətdən asılıdır. Əgər uğurlu vaxtı, məsələn, Moskvaya qarşı beynəlxalq təzyiqin gücləndiyi zamanı gözləsək, şimal qonşumuz müəyyən güzəştlər edə bilər".

**Kənan**

# "Qarabağ bölgəsi Amerika investorları üçün cazibədardır"

## "ABŞ-ın və Avropanın maliyyə beyinləri özlərini Azərbaycanda görmək arzusundadır"



ABŞ şirkətləri Azərbaycanın geri qaytarılmış torpaqlarının bərpası prosesində maraqlıdır və bu işdə fəal iştirak edir. Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Erl Litzenberger bildirib. Səfir deyib ki, bərpa işləri bir çox sahələri əhatə edir:

"Bura minaların zərərsizləşdirilməsi sahəsində fəaliyyət göstərən şirkətlər, memarlıq və dizayn şirkətləri, energetika şirkətləri daxildir. Onlardan bəziləri artıq fəaliyyət göstərmək üçün icazə alıblar". Səfir Azərbaycan və Ermənistan arasında münasibətlərin dinc yolla normallaşacağına ümidvar olduğunu bildirib: "Regionda münaqişənin aradan qaldırılması üçün kommunikasiya vacibdir. ABŞ sülh və barışıq prosesində öz dəstəyini göstərməyə hazırdır".

**İqtisadçı-ekspert Fuad İbrahimov "Şərq"ə açıqlamasında deyib ki, Amerika dünya iqtisadiyyatının flaqmanıdır. Ekspertin sözlərinə görə, ABŞ dünya maliyyə sisteminin dayanıqlığının institusional mərkəzidir:** "Dünyanın aparıcı dövlətlərinin investorlarının, sərmayədarlarının Azərbaycana, Qarabağa maraq göstərməsi olduqca mühümdür. İnvestisiya cəlb etmək iqtisadiyyatın ən kövrək hissəsidir. İnvestisiya qalmaqal və münaqişə sevməz, maliyyə dayanıqlığı olmayan yerə getməz. Sərmayədarların sağlam və rahat mühitə üstünlük verirlər. Bu baxımdan Azərbaycan və işğaldan azad edilmiş, savaş bölgəsi olmaqdan xilas edilmiş Qarabağ bölgəsi Amerika investorları üçün cazibədardır. Nəzərə almaq lazımdır ki, kifayət qədər qanunvericilik bazamızla, iqtisadi dayanıqlığımızla yanaşı, ölkəmiz regionda 4 meqalayihə reallaşdıra bilib. İcra mexanizmlərini də həyata keçirmişik. Paralel olaraq 44 günlük müharibədən və əldə edilmiş parlaq Qələbədən sonra Azərbaycanın Şimal-Cənub Dəhlizinin də müəllifi olmaq imkanları yaranıb. Bu, Zəngəzur dəhlizi ilə reallaşacaq. Beləliklə Azərbaycan bütün qovşaqların mərkəzinə çevrilib. ABŞ-ın və Avropanın maliyyə beyinləri özlərini Azərbaycanda görmək arzusundadır. Münasibətlərimizin normal olduğu istənilən Qərb ölkələrinin şirkətlərinin Azərbaycanda fəaliyyəti bizim üçün əlverişli və faydalıdır".

**İsmayıl Qocayev**

# MEDİA agentliyi işini peşəkar qurub

Medianın İnkişafı Agentliyi (MEDİA) tərəfindən çap mediası subyektləri üçün təşkil edilən müsabiqə nəticələrini açıqlanıb. Çap mediası və onlayn media subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə təşkil edilən müsabiqənin qalibləri bəlli olub.

## Gələcəkdə digər media orqanlarına da dəstək veriləcək şübhəsizdir





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Qeyd edək ki, həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5 000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15 000 manat məbləğində maliyyə yardımı göstəriləcək. Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına 3 000 manat məbləğində maliyyə yardımı göstəriləcək. Qalib elan olunan qəzetin baş redaktoru müsabiqəyə müraciət ərizəsində qəzetinin eyniadlı veb-saytını əsaslı yeniləmək niyyətini ifadə edibsə, maliyyə yardımı göstərilən 6 aylıq dövrün birinci ayında ona həmin veb-saytın əsaslı yenilənməsi məqsədilə 5 000 manat məbləğində vəsait ayrılır.

Agentlik tərəfindən maliyyələşdirilən onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstəriləcək.

Çap və onlayn media kapitanları müsabiqənin nəticələri barədə fikirlərini ”Şərq”lə bölüşüb.

**”Qaynarinfo.az” saytının baş redaktoru Zahir Əzəmət də MEDİA-nın atdığı addımı yüksək dəyərləndirdiyini qeyd edib:**

”Yalnız qəzetlərin deyil, onların onlayn versiyasının da gücləndirilməsinə hesablanmış qərardır. Bu baxımdan Agentliyin həyata keçirdiyi iş yeni tendensiya hesab oluna bilər. İlk dəfə onlayn medianın müsabiqədə iştirakı və qalib gəlməsi, say etibarı ilə çoxluq təşkil etməsi də müsbət addımdır. Müsabiqənin daha çox kollektiv əsaslı olması, saytların gələcək inkişafına hesablanmış işlərin görülməsi xoş qarşılanır. Təbii ki, bir müsabiqədə bütün parametrləri əhatə etmək mümkün deyil. Narazı olanlar varsa da, gələcək fəaliyyətlərində daha çox çalışmalı, növbəti 6 ay üçün nəzərdə tutulan şərtlərə uyğunlaşmağı düşünməlidir. Yaxşı olardı ki, mümkün qədər daha çox saytın əhatə olunması növbəti müsabiqələrdə nəzərə alınsın. Eyni zamanda müxtəlif sahəvi saytların da əhatə olunması lazımdır. Məsələn, Azərbaycanda iqtisadi təmayüllü saytlar var. Lakin həmin saytlar belə müsabiqələrdən kənardadır. Yaxud da reklam əldə etmək imkanları sıfır həddə olan mədəniyyət saytları var. Onlara da dövlət dəstəyi vacibdir. Gələcək müsabiqələrdə bu məqamların nəzərə alınacağına ümid edirəm. Ümumilikdə MEDİA-nın bu addımı daha uzunmüddətli strategiyanın başlanğıcıdır”.

**”SƏS” Media Qrupunun baş direktoru Bəhruz Quliyev vurğulayıb ki, MEDİA tərəfindən onlayn informasiya subyektləri arasında keçirilən müsabiqənin qaliblərinin müəyyən edilməsindən sonra ilk növbədə həmin veb-saytların, elektron informasiya resurslarının həm iqtisadi imkanları, həm də rəqabətə davamlılığı kifayət qədər artacaq:**

”MEDİA-nın addımı yalnız təqdir olunmalıdır. Bu yenilik, yaxud təşəbbüs ilk addımdır və qarşıdakı zamanlarda müsabiqənin daha da təkmilləşdirilməsi prosedurları həyata keçiriləcək. Hesab edirəm ki, istənilən sahə üzrə atılan ilk addımlarda həm uğurlar, həm də müəyyən nöqsanlar olur. Nöqsanlara görə yaranan narazılıqlar təkmilləşdirilmə yolu ilə aradan qaldırılır. Bu baxımdan MEDİA Agentliyinin reallaşdırdığı müsabiqələr gələcəkdə istər veb-saytlar arasında, istərsə də çap mediasında rəqabət meyillərini daha da artıracaq. İctimai rəydə, oxucuda daha çox rəğbət qazana bilən resurslar Agentlik tərəfindən müsabiqənin qalibləri elan ediləcək. Bu gün də məhz həmin prinsiplər əsas olaraq götürülüb. Xəbərin dolğunluğu, aktuallığı və operativliyi kimi meyarlar bu kimi seçimlərdə önəm daşımaqdadır. Ona görə də düşünürəm ki, həmkarımız olan hər hansı bir elektron media resursu qalib seçilmirsə, onlar bundan təəssüflənməsinlər. Əksinə, öz fəaliyyətlərində nöqsanlarını axtarmalı, hansı boşluqlara yol verdiklərini araşdırmalı, növbəti müsabiqədə qalib olmaq üçün media məkanına öz yeniliklərini gətirməlidirlər.

MEDİA-nın həyata keçirdiyi yeni layihəsinə isə uğurlar arzulayıram. Atılan hər ilk addım, verilən hər ilk qərar uğurlu gələcəyə doğru istiqamət götürür və daha geniş standartlara əsaslanaraq təkmilləşir. Əlbəttə, biz də bütün bunları nəzərə alaraq müasir media sahəsinə daha yeni nəfəs vermək üçün fəaliyyətimizi artıracağıq”.

**”Demokrat.az” saytının baş redaktoru Vasif Həsənli qeyd edib ki, müsabiqənin nəticələrini ümumilikdə ədalətli saymaq olar:**

”Burada yeni və potensialı olan saytların qalib olması MEDİA agentliyinin işini peşəkar qurduğunu göstərdi. Hesab edirəm ki, dövlət dəstəyi sözügedən saytların işini daha da gücləndirəcək. Bu müsabiqə hələ ilkidir, davam etdiriləcək. Gələcəkdə digər saytlara da dəstəyin veriləcəyi şübhəsizdir. Bütün həmkarlara uğurlar arzu edirəm”.

**Yeganə Bayramova**

# “Qalib tərəfik”

## “Ceyhun Bayramov minaların xəritəsini Lavrovdan almalıdır”



**“Biz Ermənistana dəfələrlə mina məsələsi ilə bağlı əməkdaşlıq etməyi, məlumatları verməyi demişik”.**

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov dünən qırğızıstanlı həmkarı Ruslan Kazakbayevlə görüşündən sonra keçirilmiş mətbuat konfransında deyib.

”İki gün bundan öncə üç erməni mina partlamasının qurbanı olub. Onlar arasında ölən və yaralananlar var. Mina ermənilər və ya azərbaycanlılar arasında fərq qoymur. Bunun ağır nəticəsini hər kəs görəcək”.

**Nazirin açıqlamasını ”Şərq”ə dəyərləndirən Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyevin sözlərinə görə, biz qalib tərəfik, Ermənistan qarşısında boynumuzu bükməli deyilik:**

”Ümumiyyətlə, qalib olan tərəfin belə davranışını qəbul etmirəm. Çünki ermənilər minalı ərazilərin xəritələrini yalvara-yalvara verməli idilər. Ermənistan minalı ərazilərin xəritələrini artıq verib, xəritələr Rusiya Xarici işlər naziri Sergey Lavrovdadır. Ona görə də gedib Lavrovdan alsınlar. Ceyhun Bayramov xəritəni tələb etməlidir. Yeni müharibənin başlayacağı ilə bağlı təhdidlər səsləndirmək lazımdır. Qalib tərəflər hər zaman belə edir”.

**Yeganə Bayramova**

# Yeni “sürprizlərə” hazır olmalıyıq



## Adil Qeybulla: “Delta plus” ştammının yoluxuculuq qabiliyyəti daha sürətlidir”

Koronavirusun yeni variantı olan "Delta" ştammı sürətlə yayılmağa davam edir. Artıq dünyanın 11-dən çox ölkəsində yeni ştamma rast gəlinib.



Alimlər COVID-19-un Hindistan ştammına (DELTA) yoluxmuş xəstələrin dörd yeni simptomla qarşılaşdıqlarını bəyan edirlər. SARS-CoV-2-nin delta variantına yoluxanlar tez-tez ishaldan şikayətlənirlər. Halbuki, pandemiyanın ilk dalğası zamanı bənzər simptom daha az müşahidə edilirdi. Bundan əlavə, Hindistan ştammının pasiyentləri qanqrenaya gətirib çıxaran trombların yaranması ilə qarşılaşırlar.

Hazırda ”Delta” ştammının ölkəmizdə yayılıb-yayılmayacağına dair geniş müzakirələr aparılır. Xüsusilə, payız ayında müəyyən gərgin vəziyyətin olacağı iddia olunur. Həqiqətən də, yeni variant Azərbaycan üçün təhlükəli hal yarada bilərmi?

**Sualımızı cavablandıran tibb elmləri doktoru, professor Adil Qeybulla ”Şərq”ə bildirib ki, dünyada ”Delta” ştammı yaz aylarından mövcud idi.**

Professor qeyd edib ki, hazırda ”Delta plus” ştammı sürətlə yayılmaqda davam edir: ”Koronavirusun ”Delta plus” ştammının yoluxuculuq qabiliyyəti COVID-19-a nisbətən daha sürətlidir. Alimlər və tədqiqatçılar sözügedən ştammı yeni növ pandemiyanın başlanğıcı və qorxulu dördüncü dalğanın başlanğıcı hesab edirlər”. ”Delta plus”un əsas özəlliyi ondan ibarətdir ki, burada virusun çox asanlıqla hüceyrə daxilinə keçməsi mümkün olur və istifadə edilən peyvəndlər, insanlarda olan güclü immunitet ”Delta plus”dan qorunmağa tam kifayət edə bilmir. Alimlərin fikrincə, immuniteti güclü olan şəxslər sözügedən virusu nisbətən yüngül keçirəcəklər. Buna baxmayaraq biz arxayın olmamalı və yeni ”sürprizlərə” hazır olmalıyıq”.

**A.Qeybulla hesab edir ki, ”Delta plus” ştammının yayılması yeni növ ciddi dalğaya səbəb olma ehtimalını yüksəldir:** ”Adıçəkilən ştamm çox yoluxucudur və öldürücülük qabiliyyəti də yüksəkdir. Koronavirus infeksiyası yayılanda uşaqların xəstəliyi əlamətsiz keçirmələrini bildirirdik, indi uşaqlarla bağlı vəziyyət gərgindir. ”Delta plus” uşaqlara təsirsiz ötüşmür və onların əsasən mədə-bağırsaq sistemlərində ciddi problemlərə gətirib çıxara bilir”.

**Yeganə Bayramova**



# Polis dövlətin ədaləti qoruyan güc sifəti olmalıdır

## "Çünki məhz onda azğının qabağı alınar, məzlumun haqqı qorunar"

Müstəqil dövlətimizin ən mühüm atributlarından, əsas sütunlarından olan Azərbaycan polisinin 103 yaşı tamam olur. Qeyd edək ki, Azərbaycanın ilk polis bölüyü 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb.

Azərbaycan polisinin fəaliyyəti tariximizin xanlıqlar dövründə görünməyə başlayıb. Həmin vaxtlar xanlıqlarda xüsusi səlahiyyətlərlə fəaliyyət göstərən darğalar müəyyən polismeyster idarələri; - Bakı Şəhər upravasının polisi; - Bakı xüsusi Vergi polisi; - xəfiyyə polisi; - Gəncə, Zəngəzur, Şuşa, Cavad və.s qəzaların polis idarələri. 1920-ci ilin aprelində bolşevik Rusiyası ölkəmizi işğal edir və Azərbaycanda sovet hakimiyyəti qurulur. Sovet Azərbaycanının ilk daxili işlər naziri Həmid Sultanov təyin edilir. Pristavları komissarlar əvəzləyir, polisin adı dəyişdirilərək milis adlandırılır. Azərbaycanın ilk polis bölüyü 1918-ci il iyulun 2-də Xalq Cümhuriyyəti dövründə yaradılıb. Məqsəd cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək olub. 1998-ci ildən isə iyulun 2-si prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan daxili işlər orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

**Daxili İşlər Nazirliyi yanında İctimai Şuranın sədri Əliməmməd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, 103 illiyini qeyd etdiyimiz Azərbaycan polisi, daxili işlər orqanları asayişin və təhlükəsizliyin mühafizəsi, sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlıqla mübarizə kimi məsuliyyətli vəzifələri yerinə yetirir:** "Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın parlaq zəfəri ilə başa çatan 44 günlük Vətən Müharibəsində də Daxili İşlər Nazirliyinin Daxili Qoşunları, polis əməkdaşları böyük töhfə verdilər. Hazırda işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları həm asayişin keşiyində durur, həm də ərazi bütövlüyümüzün qorunmasında öz xidməti borclarını şərəflə yerinə yetirirlər. Daxili İşlər Nazirliyi vətəndaş cəmiyyəti ilə əlaqələrə, əməkdaşlığa hər zaman xüsusi diqqəti ilə fərqlənib. Nazirliyin fəaliyyət istiqamətləri ilə əlaqədar hər zaman müzakirələrə, təkliflərə açıq olub. Nazirlik yanında İctimai Şuranın yaranması və fəaliyyətə başlaması bu əməkdaşlığı daha yüksək səviyyəyə qaldıracaq".

**Ədalət Partiyası sədrinin siyasi məsələlər üzrə müavini Elxan Şükürlü polis işçilərini təbrik edib:** "Gücə söykənməyən ədalət aciz, ədalətə söykənməyən güc isə zalım olar" - deyiblər. Mənim nəzərimdə polis dövlətin məhz ədalətə söykənən və ədaləti qoruyan güc sifəti olmalıdır həmişə. Çünki məhz onda azğının qabağı alınar, məzlumun haqqı qorunar və beləliklə, insanların öz dövlətinə inam və etibarını, sevgisini qazandırar... Bu gün mən əynindəki polis mundirinin məsuliyyətini anlayan, bu mundirə imtiyaz yox, xalqa və dövlətə şərəflə xidmət imkanı kimi baxan, gücünü isə qanunun, həqiqətin və ədalətin qorunmasına, azğın düşmənimizin qarşısının alınmasına yönəldən ləyaqətli və cəsur polislərimizi səmimiyyətlə təbrik edirəm! Qəlbinizdəki ədalət hissiniz və onu qoruyan gücünüz, uğrunda ölməyə hazır olduğunuz Dövlətimizə sevginiz heç zaman tükənməsin!".

**Aynurə Pənahqızı**

# Qaliblər sırasında 7 idman saytı da var

## "İdman jurnalistikasında həqiqi peşəkarların sayı artacaq"



**MEDİA idman jurnalistikasına olan ögey münasibəti aradan qaldırdı**

**"MEDİA agentliyinin dünənki qərarına kimi idman mediası və idman jurnalistləri Azərbaycanda bütün dövrlərdə diqqətdən kənarda olublar".**

*Bu sözləri Əməkdar jurnalist, "Qol.az"saytının baş redaktoru Aydın Bağırov deyib.* O qeyd edib ki, çox vaxt da onlar bunu dilə gətirməyib, gileylənməyiblər: "Baxmayaraq ki, mediada ən çox əziyyət çəkənlər sırasında idman jurnalistləri öndə gələnlər sırasında olublar. Saytlarda jurnalistlər var ki, şənbə-bazar demədən, istirahət etmədən çalışırlar, gecə saat 3-4-ə qədər yuxu almırlar ki, sabah səhər oxucu oyanıb sayta baxanda futboldakı hesabdan xəbəri olsun. Amma bütün bunlara baxmayaraq, idman mediası hər zaman dövlətin dəstəyindən məhrum olub: ictimai şüura heç bir təsiri olmayan lazımsız qəzetlərə pul ayrılanda idman mediamıza onlarla istedadlı jurnalist bəxş etmiş "Futbol+" qəzetinin haqlı tələblərinə qulaq asılmayıb, ağır durumda olan bu nəşrə kömək edilməyib. Jurnalistlər üçün fərdi yazı müsabiqələrində isə idman mediasını ümumiyyətlə, yada salan olmayıb".

**A.Bağırov əlavə edib ki, müsbət haldır ki, yeni yaradılan MEDİA agentliyi idman mediasına qarşı bu ögey, qəbulolunmaz münasibəti aradan qaldırdı:** "Qurumun rəhbərliyi İdman Jurnalistləri Federasiyasının və bəzi idman jurnalistlərinin bununla bağlı təkliflərini həssas münasibət göstərərək diqqətdən kənarda qoymadı. Nəticədə əvvəlcə idman jurnalistləri də fərdi yazı müsabiqələrinə buraxıldı. Dünən isə onlayn media üçün elan edilən müsabiqənin qalibləri sırasına 7 idman saytı (Futbol+ qəzetinin də saytı da həmçinin) daxil edildi.

İdman saytlarının böyük əksəriyyətinin iqtisadi durumunun yaxşı olmadığını nəzərə alsaq, MEDİA agentliyinin son qərarının idman jurnalistikamızın həqiqi inkişafına müsbət təsir göstərəcəyini, bu qərarın tezliklə saytların işində canlanmaya səbəb olacağını söyləmək olar. İnanıram ki, bu dəstək gələcəkdə davam etdiriləcək. Bu halda idman jurnalistikasında həqiqi peşəkarların sayı artacaq, onlayn medianın səviyyəsi də yüksəlməyə başlayacaq".

**Aynurə**

# Azərbaycan Rusiya üçün Əfqanıstan deyil

## "Bakı separatçılıqda iştirakı olmayan Xankəndi sakinləri ilə birbaşa danışıqlara gedə və onların təhlükəsizliyinə zəmanət verə bilər"

Ermənistan rəsmilərindən sonra Rusiya təmsilçiləri də rus sülhməramlılarının Qarabağda hansı müddətə qalacağı ilə bağlı açıqlamalar veriblər. Rusiya Elmlər Akademiyasının Şərqşünas İnstitutunun direktor müavini, politoloq Aleksandr Skakov iddia edib ki, sülhməramlılar Qarabağda yaşayan ermənilərin mövcudluğunun qarantıdır və rus silahlı birləşmələri 5 il sonra oradan uzaqlaşmayacaq. Çünki rusla daha çox uzun müddətlik orada qalmağa gəliblər:

"Azərbaycan Silahlı Qüvvələrinin sərhəddəki varlığının əsası Ermənistan-Azərbaycan sərhədinin müəyyənləşdirilməməsi problemidir. Bu problem təkcə Ermənistan və Azərbaycana aid deyil. Problemin həlli üçün danışıqlar lazımdır, məsələnin araşdırılması zəruridir".

Xatırladaq ki, son bir həftə ərzində əvvəlcə Ermənistan Təhlükəsizlik Şurasının baş katibi Qriqoryan, ardınca Qarabağ separatçılarından biri rus sülhməramlılarının bölgədə daha uzun müddət qalmasının "vacibliyindən" dəm vururlar. Hətta erməni rəsmilər rusiyalı həmkarlarından bununla bağlı "təminat" aldıqlarını da bildirirlər. Onsuz da Azərbaycan cəmiyyətində Rusiya sülhməramlıları ilə bağlı birmənalı münasibət yoxdur. Daha doğrusu, əksəriyyət rusların Qarabağda varlığından ciddi narahatlıq keçirir.



**"Rus sülhməramlılarının uzun müddətdə Qarabağda qalması ilə bağlı səslənən iddialar yersizdir"**

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Rusiya sülhməramlılarının Azərbaycanda qalma müddətinin uzadılması ilə bağlı qərar yoxdur. Analitikin fikrincə, Rusiya bölgədə uzun müddət qalmaq arzusundadır:** "Ermənistan da istəyir ki, Rusiya burada qalsın. Qərara görə, sülhməramlılar 5 ildən sonra bölgəni tərk etməlidirlər. Onu da qeyd edim ki, rus sülhməramlılarının burada olmasının qanuniliyi sual altındadır. BMT və beynəlxalq qurumlar Rusiyaya belə bir imtiyaz verməyiblər, Azərbaycan parlamenti bu qərarı təsdiqləməyib. Azərbaycan savaşda qalib gəlib. Artıq rus sülhməramlılarına ehtiyac da yoxdur. Bakı separatçılıqda iştirakı olmayan Xankəndi sakinləri ilə birbaşa danışıqlara gedə və onların təhlükəsizliyinə zəmanət verə bilər. Digər tərəfdən, Türkiyənin Şuşa, Bakı, Gəncə və Naxçıvanda hərbi hissələrinin yerləşdirilməsi məsələsinə də baxa bilərik. Azərbaycan Rusiya üçün Əfqanıstan deyil. Odur ki, onların bölgə ilə bağlı iddiaları da yersizdir. Rusiyanın başı onsuz da özünə, sosial və iqtisadi problemlərə qarışıb. Əlavə problem Moskvaya lazım deyil. Ümid edək ki, Kreml də bu həqiqəti anlayacaq".

**İsmayıl Qocayev**

# "Müharibədə qazanılan qələbə siyasətdə də təsdiqlənməlidir"



## Türkiyəli hüquqşünas: "İstərdim ki, Qarabağ haqqında kitabım Azərbaycanda da çap olunsun"

Azərbaycanın Qarabağ müharibəsində qazandığı parlaq zəfər sözün əsl mənasında dillərdə dastan oldu. Artıq ayrı-ayrı hərbi məktəblərdə uğur taktikamızdan danışılır. Həmçinin qələbəmizlə bağlı fərqli əsərlər yazılmaqdadır. Türkiyəli hüquqşünas, vəkil Ferhat Aznevi də bu prosesdən geri qalmadı. Onun "Türkiyə və Azərbaycan ortaq erməni problemi, Dağlıq Qarabağ və 10 noyabr 2020 atəşkəs andlaşması" kitabında 44 günlük döyüşlərin siyasi nəticəsi geniş təhlil edilib.

*Odur ki, "Şərq" olaraq müəlliflə əlaqə saxladıq və kitab haqqında daha ətraflı öyrəndik.*

**- Necə oldu ki, belə bir əsər yazdınız?**

- Birinci Qarabağ müharibəsindəki itkiləri Türkiyədə eyni universitetin yataqxanasında qaldığımız azərbaycanlı dostlarımızla birlikdə yaşamışdıq. Həmin çətin günlərdə ard-arda itirilən torpaqlar barədə xəbərləri birlikdə izləmişdik.

Odur ki, Azərbaycan və Türkiyəyə qarşı qoyulan erməni məsələsi əleyhinə mübarizə aparmaq hər birimizin işidir. Əsla unutmaq olmaz ki, yalnız 1918-ci ildəki Batum müqaviləsindən sonra İrəvan Ermənistana verilmişdi. Sonradan Ermənistanın Azərbaycan

> **"Kremlin bölgədəki mövcudluğu üçün hüquqi əsas qalmayacaq"**

və Türkiyəyə qarşı torpaq iddiaları bu iki dövləti bir-birinə daha da yaxınlaşdırmışdı. Sonradan vəziyyət dəyişdi, tarix öz hökmünü verdi. Məhz indiki həssas dövrdə, müharibədə qazanılan qələbənin siyasətdə də təsdiqlənməsi baxımından "Erməni problemi - Dağlıq Qarabağ və 10 noyabr 2020 atəşkəs andlaşması" kitabını yazdım. Fürsətdən istifadə edib professor Mətin Feyzioğluna və Ankarada Azərbaycanın milli mübarizəsini müdafiə edən və türk ictimaiyyətinə tanıdan professor Aygün Attara minnətdarlığımı bildirirəm.

**- Kitabda hansı məqamlar qabardılıb?**

- Əvvəla onu deyim ki, Azərbaycan və Türkiyə üçün iki fərqli erməni problemi yoxdur. Və iki qardaş dövlətin bu problemi ayrılıqda həll edə bilmədiklərini tarix göstərib. Azərbaycan tarixi, o cümlədən Qarabağ həqiqətləri mənə yaxşı məlumdur. İkinci hissədə İkinci Qarabağ müharibəsi və 10 noyabr 2020-ci il razılığı hüquqi müstəvidə təhlilə cəlb edilib. Nəzərinizə çatdırım ki, Rusiyanın regiondakı varlığı məhz həmin üçtərəfli bəyanatın şərtləri ilə tənzimlənir. Tərəflərdən hansısa razılıqdan imtina etsə, Kremlin bölgədəki mövcudluğu üçün hüquqi əsas qalmayacaq.

**- Bəs qardaş dövlət?**

- Bildiyiniz kimi, Türkiyə üçtərəfli razılaşmada yox idi. Buna baxmayaraq, həmin sənədin beşinci maddəsinə uyğun olaraq yaradılan monitorinq mərkəzinin bərabərhüquqlu üzvüdür. Eyni zamanda rəsmi Ankara Naxçıvan Muxtar Respublikasının qarant dövlətidir. Bu, hələ illər əvvəl imzalanan Qars və Moskva müqavilələrində öz əksini tapıb. 10 noyabr bəyanatının tələblərinə zidd olaraq Ermənistanın regiondakı təxribatları bu gün də davam edir. Həmçinin silahlı qruplaşmalar hələ çıxarılmayıb. Kitabda bütün bu mövzular, o cümlədən rus silahlı... hməramlılarının fəaliyyəti aydın işıqlandırılıb.

**- Bundan sonra bənzər kitablar yazacaqsınız?**

- Bəzi işlər üzərində çalışıram. Yəqin, tədqiqatların davamı gələcək. Onu da deyim ki, bu kitabın Azərbaycanda da nəşr olunmasını istərdim.

**Kənan Novruzov**

# Üzü payıza başqa ştammlar ola bilər

## Harmancı təhlükəsizlik tədbirlərini gücləndirməyə çağırıb



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı karantin tədbirlərini sərtləşdirməyə səsləyən çağırış edib. ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri bildirib ki, Azərbaycanda yoluxma azalsa da, dünyada pandemiya hələ bitməyib: "Buna görə də hamıdan xahiş edirəm, özümüzü qorumağı unutmayaq".**

H.Harmancı üzü payıza təhlükəsizlik tədbirlərini möhkəmləndirməyə çağırıb: "Qarşıdan payız mövsümü gəlir və havaların soyuması nəzərə almaq lazımdır. Sentyabr və oktyabrda "Delta" ştammı ilə bağlı qorunma tədbirlərinə davam edilməlidir. Başqa ştammlar da ola bilər. ÜST daim bunları monitorinq edir. Peyvəndlərdən mütləq şəkildə istifadə olunmalıdır. Peyvəndlər təsirli və təhlükəsizdir. Əhali gigiyenik qaydalara əməl etməlidir. Xüsusilə sıx məkanlara girdiyimiz zaman maska taxmaq vacibdir. Vaksinasiya çox önəmlidir".

*Xatırladaq ki, koronavirus infeksiyası ötən ilin dekabrında Çinin Uhan şəhərində yayılmağa başlayıb. Hazırda virus dünyanın əksər regionları və ölkələrində yayılıb. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2020-ci ilin fevralında 11-də infeksiyanın törətdiyi xəstəliyin adını COVID-19 qoyub, 2020-ci ilin martın 11-də isə koronavirusu pandemiya elan edib.*

**Aynurə Pənahqızı**



# Qapanmalar istisna deyil

## "Yoluxanların sayında artım var"

**Nə qədər arzulasaq da, koronavirus bəlası hələ də bitmir. İnsanlar gözlə görünməyən, zərrəcikdən də kiçik virusun qurbanına çevrilirlər. Özləri də bilmirlər necə olur. Öskürək, asqırak, yüksək hərarət...axırda süni nəfəs aparatı.**

Yoluxma sayının ikirəqəmliyə düşdüyünə görə vəziyyətin yaxşılaşacağına ümid edirdik. Amma ümidlərimiz xəyal qırıqlığı ilə əvəz olunmaqdadır. Çünki yeni ştamm meydana çıxıb, dünyada yoluxanların say yenidən çoxalıb.

Həkim-nevroloq Vüqar Cəfər də "Şərq"ə açıqlamasında deyib ki, sevinmək üçün tələsməyə dəyməz: "Məlum olduğu kimi, Rusiya və Gürcüstanda durum yenidən pisləşib. Qonşu ölkələrdəki tendensiyaya əsaslansaq, bizdə də yoluxanların sayında artım gözlənilir. Xüsusilə yayda Rusiyada yaşayan soydaşlarımız vətənə gələcək. Beləliklə, yoluxanların sayının üçrəqəmliyə qalxması və qapanmalar istisna deyil".

**Kənan**

# Gəncə suya möhtac qalıb

## Bir çox məhəllələrdə evlərə gündə cəmi 2 saat su verilir

### "Azərsu"nun bütün fəaliyyəti araşdırılmalıdır




*Gəncədə 150 illik tarixi olan çinar ağacları susuzluqdan məhv olur*

**Milli Məclisin iclasında komitə sədri Musa Quliyev təmsil etdiyi Gəncənin su problemini qaldırıb. Deputat su təminatını həyata keçirən qurumu sərt tənqid edib. M.Quliyev Gəncədə su qıtlığı ilə əlaqədar yaranmış gərgin vəziyyətlə bağlı hökumətə müraciət edib:**

"Yay fəslinin gəldiyi cəmi 10 gündür, amma Gəncədə artıq ağacların payızıdır. Susuzluqdan yanan ağacların yarpaqları tökülür, xəzəli küçələrdən yığışdırıb qurtarmaq olmur. Körpə fidanlarla yanaşı, 100-150 il yaşı olan Gəncə çinarları da quruyub məhv olur. Bir çox məhəllələrdə evlərə gündə cəmi 2 saat su verilir. Gəncənin qədim kəhrizlərini və arxlarını sıradan çıxartdılar ki, şəhərin su-kanalizasiya sistemi yenidən qurulur. 2011-ci ildə "Azərsu" ASC-nin başladığı layihənin indiyədək cəmi 42 faizi icra olunub. 200 milyon avrodan çox vəsait xərclənməsinə baxmayaraq, nəticə yoxdur. Əslində nəticə var: qazıq-qazıq küçələr, gündə bir küçədən partlayıb dağılan keyfiyyətsiz qurulan kanalizasiya xətləri, su qıtlığı və əhalinin narazılığıdır. Ən acınacaqlı nəticə isə odur ki, həmin layihə vəsait çatışmazlığı səbəbindən bu ilin 1 yanvar tarixindən dayandırılıb. Bu, xalqa və dövlətə qarşı cinayətdir".

**M.Quliyev Hesablama Palatasına da səslənib:** "Bu layihənin maliyyə təminatının məqsədyönlülüyünü araşdırın. Respublika Prokurorluğuna müraciət edirəm. Yoxlayın, aydınlaşdırın, bu layihə nə qədər səmərəli və keyfiyyətli icra olunub? Gəncədə yaşıllıqlar məhv olur, insanlar əziyyət çəkir. Son 10 ildə Gəncənin ətrafındakı Cavad xan, Məhsəti, Şıxzamanlı, Natavan qəsəbələrində 6000-ə yaxın fərdi yaşayış evləri tikilib. Heç birinin də su-kanalizasiya təchizatı yoxdur. Təcili şəkildə bu problemlər öz həllini tapmalıdır. Hazırda Gəncənin su probleminin həlli üçün 30 yeni artezian quyusunun qazılmasına ehtiyac olduğu halda bu il cəmi 1 artezian quyu qazılması nəzərdə tutulur. Mən hökumətə müraciət edirəm: cənab Baş nazir, Gəncənin su problemini nəzarətə götürün və qısa müddətdə həlli üçün müvafiq qurumlara tapşırıq verin".

**İsmayıl**

# Bundan böyük həyəcan olmaz

## Hər il Azərbaycanda yüksək qan təzyiqindən 24 min insan ölür





## "İnsanların 99 faizi oturaq həyat tərzi keçirir. Fikir vermisiniz, avtobusa, metroya minənlərin gözləri əyləşməyə yer "axtarır". Ayaqüstə durmağa da taqətləri qalmayıb, insanların"

Azərbaycanda hər il hipertoniyadan (qan təzyiqinin yüksək olması) 24 min insan ölür. Bunu Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib. Onun sözlərinə görə, hipertoniya hər il ölkə iqtisadiyyatında 600 milyon manatlıq itkiyə səbəb olur. H.Harmancı daha bir ilginc məlumat açıqlayıb: "Təkcə Şamaxıda 19 min hipertoniya xəstəsi var. Bunlardan sadəcə 2400-ü xəstə olduğunu bilir və müalicə alır. Digərləri ölüm riski qrupuna daxildir". ÜST rəsmisi qeyd edib ki, bu baxımdan ilkin səhiyyə xidməti çox önəmlidir.

**Həyat tərzimiz risk faktorları ilə doludur**

Mütəxəssis rəyi ilə tanış olmazdan öncə hipertoniya nədir, əlamətləri, səbəbləri hansılardır, qısa izahı təqdim edirik.

Hipertaniya - tibbi adıyla arterial hipertenziya - arterial təzyiqin 140/90 mm.civə sütunundan yuxarı qalxmasıdır.

Arterial hipertenziya birincili və ikincili olur. Birincili arterial hipertenziya hipertoniya xəstəliyinin ayrıca bir xəstəlik olub əsas və aparıcı əlaməti arterial təzyiqin qalxmasıdır.

İkincili arterial hipertenziya isə simptomatik hipertoniya adlanır və bu zaman arterial hipertenziya başqa xəstəliklər nəticəsində əmələ gəlir.

Simptomatik hipertoniyaya böyrək mənşəli hipertenziya - böyrək arteriasının stenozu, aterosklerozu, pielonefrit, qlomerulonefrit, böyrəkdaşı xəstəliyi və s. daxildir. Endokrin (hormonal) mənşəli hipertenziya (qalxanabənzər vəz xəstəlikləri (zob), oral kontraseptivlərin qəbulu və s.), sinir mənşəli hipertenziya da var (kəllə-beyin travmaları və s.).

Hipertoniyanın yaranmasında həyat tərzi ilə bağlı risk faktorları iştirak edir. Məsələn, duzlu və yağlı qidaların həddindən artıq qəbulu, qida rasionunda meyvə və tərəvəzlərin az olması və ya ümumiyyətlə olmaması, spirtli içkilərdən istifadə, fiziki aktivliyin az olması və ya oturaq həyat tərzi, həddindən çox stresli həyat tərzi, siqaretdən asılılıq.

Həyat tərzi ilə bağlı qeyd olunan risk faktorlarının təsiretmə səviyyəsi insanların harada yaşaması və işləməsi ilə də sıx əlaqəlidir. Bundan əlavə ürək xəstəlikləri, insult, böyrək çatışmazlığı və hipertoniyanın digər ağırlaşmalarına səbəb olan bir sıra metabolik risk faktorları da mövcuddur. Bunlara şəkərli diabet, qanda xolesterinin yüksək səviyyəsi, artıq çəki və piylənmə daxildir.

**Qan təzyiqindən ölüm halları artıb**

**Həkim-infeksionist Mərdan Əliyev ÜST nümayəndəsinin açıqlamasında narahatedici məqamlar olduğunu dedi:**

- Qan təzyiqi xəstəliyində birinci növbədə genetik faktorlar üstünlük təşkil edir. Yəni hipertoniya irsi, nəsildən gələn olur. Digər faktorlar təkanvericidirlər. Sual olunur ki, qan təzyiqi xəstəliyi, bu xəstəlikdən ölüm halları niyə artıb? 50 il əvvəl xəstəliyə bu qədər rast gəlinmirdi. Cavabı sadədir, eyni zamanda narahatedicidir. Baxın, mən kənddə böyümüşəm. Mənim babam kənddən rayon mərkəzinə getmək üçün səhər evdən çıxırdı, 2 kilometr yolu piyada gedirdi, sonra yolun hansısa hissəsində rayona gedən avtobusa minirdi. Bağda işləyirdi, tarla əkirdi, becərirdi. Həyətdə, çöldə çalışırdı, odun doğrayırdı, ot biçirdi, əkin suvarırdı O qədər iş-güc olurdu ki. Ümumən insanlar fiziki cəhətdən aktiv idilər. İndi insanlar hansı fiziki aktivliyə malikdir? İndiki insanlar evlərinin yaxınlığında olan marketə də maşınla gedirlər. Avtomobili marketin düz qarşısına sürürlər, ordan da aldıqları ərzağı, malları maşına yükləyib evə qayıdırlar. İnsanlar hərəkət etmir. İnsanların 99 faizi oturaq həyat tərzi keçirir. Fikir vermisiniz, avtobusa, metroya minənlərin gözləri əyləşməyə yer "axtarır". Ayaqüstə durmağa da taqətləri qalmayıb, insanların. Çünki o qədər oturaq həyat tərzi keçirirlər ki, bədənin aktivliyini itirib artıq, tənbəlləşib. İnsan normal halda gündə 10 kilometr piyada gəzməlidir. Hesablasaq, gün ərzində bəlkə heç 1 kilometr də piyada gəzmirik. Amma 50 il əvvəlki insanlarımız gündə 50-60 kilometr piyada gəzirdilər. Sonra, digər əsas faktor duzlu və yağlı yeməklərdir. Bunu deyəndə, çox adam o saat qayıdır ki, "əvvəlkilər də yağlı yeyirdi, niyə xəstələnmirdilər?". Bayaq dedim, babam yağlı ət yeyirdi, durub bağda işləyirdi, yediyi həzmə gedirdi, yəni yağların yanma prosesi, əriməsi gedirdi. Ona görə də piylənmə, kökəlmə olmurdu. Amma indi, yağlı yeməkdən yeyib, ya televizor, kompüter qarşısında əyləşirlər, ya da smartfonla "oynayırlar". Qəbul edilən yemək də həzmə getmir, orqanizmdə depolanıb qalır. Duzlu yeməklər də həmçinin, qan təzyiqinin qalxmasına səbəb olan faktorlar sırasındadır. İnsan normadan artıq duz qəbul etdikdə (yeməyin tərkibində və ya şoraba formasında) orqanizmdə suya tələbat artır. Tələbat artdığı üçün insan normadan artıq su içməyə başlayır. Artıq miqdarda olan bu su qanda suyun miqdarını artırır, nəticə etibarilə bədəndə dövr edən qanın miqdarını artırmış olur ki, bu da hipertoniyaya - qan təzyiqinin artmasına gətirib çıxarır. Ona görə də qan təzyiqi yüksəlmiş insanlara sidikqovucu qəbul etmək məsləhət görülür ki, əlavə su bədəndən xaric olsun, qan təzyiqi normallaşsın. Bədəndə məsələn, qanın miqdarı 5 litr olmalıdır, 5,5 həddində artıq təzyiq yüksəlməsi baş verir.

Arterial təzyiqin qalxması çox zaman əlamətsiz olur və yalnız təsadüfən ölçmə zamanı aşkarlanır. Əlamətlər olduqda isə bu adətən özünü başağrıları (təzyiq çox yuxarı qalxanda), başgicəllənmə, ürəkdöyünmə, ümumi halsızlıq şəklində göstərir.

Bundan başqa arterial təzyiqin qalxması digər orqanların (göz, böyrəklər, beyin, ürək və s.) fəaliyyətinə mənfi təsir göstərir və onları zədələyir.

Simptomatik hipertoniyanın digər əlamətləri əsas xəstəlikdən asılıdır. Belə ki, böyrək mənşəli hipertenziyada beldə ağrılar ola bilər və sairə.

**M.Əliyev qeyd etdi ki, qan təzyiqi ürək-damar xəstəliklərindən daha təhlükəlidir:**

- Ürəyində hər hansı problem olan adam uzun ömür sürə bilər. Amma qan təzyiqi varsa, bu, böyük riskdir. Bəzən deyirlər ki, filankəs infarkt oldu, ürəyi dayandı çox zaman bu insanlar ürək xəstəliyindən deyil, qan təzyiqinin yüksəlməsindən keçinirlər. Ürək çatışmazlığı olan insanın qan təzyiqi yoxdursa, risk daha azdır. Ona görə də ilk növbədə təzyiqi normada saxlamağa çalışılmalıdır.

*"Başqa bir səbəb duzlu və yağlı yeməklərdir. Əvvəl belə deyildi, indi, yağlı yeməkdən yeyib, ya televizor, kompüter qarşısında əyləşirlər, ya da smartfonla "oynayırlar"*



**Niyə Şamaxı?**

ÜST nümyəndəsinin Şamaxı haqqında "təkcə Şamaxıda 19 min hipertoniya xəstəsi var. Bunlardan sadəcə 2400-ü xəstə olduğunu bilir və müalicə alır. Digərləri ölüm riski qrupuna daxildir", açıqlaması da suallar doğurur. Niyə məhz Şamaxı? Qan təzyiqi xəstəliyində insanların harada yaşaması, harada işləməsinin də əhəmiyyət daşıdığını xatırlasaq, bu faktorlar xəstəliyə yaxalananların say çoxluğuna hansı formada təsir edir?

**Həkim bildirdi ki, iqliminə görə Şamaxının havası sərin və qurudur. Bu da ümumiyyətlə, insan orqanizmi üçün əlverişli hesab edilir. İnsanları adətən rütubətli, nəmli hava narahat edir. M.Əliyev hesab edir ki, Şamaxını, görünür, sadəcə bölgələr içindən seçiblər:**

- Qan təzyiqi xəstələrinin sayı etibarilə araşdırma aparılsa, Bakı birinci yerdə olacaq. Bakının havası ağırdır, rütubət əmsalı böyükdür. Bakı böyük meqapolisdir, burda insanlar daha az hərəkətlidir, çünki işə gedib-işdən gəlirlər. Avtomobillər, ictimai nəqliyyat da öz yerində. Düşünürəm ki, Şamaxıda qan təzyiqi xəstələrinin say çoxluğu genetik amillərlə bağlıdır. Yəni genetik meyillilikdən irəli gəlir. İkinci səbəb, məncə, Şamaxının başqa bölgələrə nisbətən kənd təsərrüfatı, əkinçilik, maldarlıqda az inkişaf etməsidir. Şamaxı az hərəkətli zonalara daxildir. Məsələn, Aran rayonlarında, baxmayaraq ki, hava çox isti olur, bu bölgələrin insanları çalışqandır. Əkin-biçinlə, heyvandarlıqla məşğuldurlar. Fiziki aktivdirlər. Şamaxı demək olar şəhər tipinə aiddir. Amma yenə də mən ÜST-nin Azərbaycanın bütün regionları üzrə belə bir təhqiqat apardığını zənn etmirəm. Bəlkə onlar yalnız Şamaxı üzrə tədqiqat aparıblar və belə bir mənzərə ortaya çıxıb. Xəstəliklərin yayılmasında iqlim şəraiti yox, həyat tərzi və genetik amillər əsas rol oynayır.

**Məlahət Rzayeva**

# Plan baş tutmuş sayılır



*ABŞ Əfqanıstandan çıxdı, Rusiyanın çətin günləri başlayır*

ABŞ və NATO qüvvələri Əfqanıstanın ən böyük aviabazasından çıxıb. Birləşmiş Ştatlar və NATO qüvvələri Əfqanıstanın Baqram (Pərvan vilayəti) aviabazasını tərk edib. Bu barədə məlumatı Pentaqon yayıb. "Bütün koalisiya qüvvələri Baqramı tərk etdilər", - deyə Pentaqon nümayəndəsi bildirib. O, qoşunların bazanı konkret olaraq nə vaxt tərk etdiyini açıqlamayıb. Pentaqon rəsmisi eyni zamanda bazanın Əfqanıstan Silahlı Qüvvələrinə nə vaxt qaytarılacağına da aydınlıq gətirməyib.

**Mövzu ilə bağlı suallarımızı cavablandıran BAXCP sədrinin müavini, politoloq Azər Qasımov ”Şərq”ə açıqlamasında deyib ki, Amerikanın Əfqanıstandan çıxması ilə Rusiyanın çətin günləri başlayacaq. Ekspert qeyd edib ki, Əfqanıstanı tərketmə əməliyyatı Amerikanın planlaşdırdığı oyundur:** ”Amerika Talibanla danışıqları başa vurduqdan sonra Əfqanıstandan çıxmağa başladı. Artıq Taliban Əfqanıstanın 90 faizini ələ keçirdiyini açıqlayıb və tezliklə bütün əraziləri ələ keçirəcək. Bundan sonra Taliban İslam xilafəti quracaq, dünyada nə qədər terrorçu, quldur, başkəsən varsa hamısı ora yığılacaq, əgər çoxdan yığılmayıbsa. Amerikanın Əfqan hakimiyyətinə verdiyi bütün silahlar da taliblərin əlinə keçib. Rusiyanın və KTMT-nin qara günləri başlayacaq. Ona başa salacaqlar ki, Ukrayna və digər əraziləri işğal etmək necə olur. Taliblərin Rusiyanın Ryazan şəhərinə kimi gəlmək planları var. Talibanın tələbə hərəkatı olduğunu və Taliban sözünün tələbə demək olduğunu qeyd etmək istəyirəm. Onlar 80-ci illərdə sovet işğalından qaçıb Pakistana gedən uşaqları Amerika və Səudiyyə Ərəbistanının varlı ailələrinin maliyyəsi ilə mədrəsələrdə Vəhabi təriqəti ruhunda böyüyüb, Pakistan İdarələrarası kəşfiyyat (İK) təşkilatının nəzarəti və idarəetməsində olan bir təşkilatdır. Sonralar bu təşkilat çox böyüyür və onun alt orqanlarının əməkdaşları Talibanla o qədər yaxın olur ki, artıq Pakistan hakimiyyəti də onlardan çəkinir. Və onların idarəsindən demək olar ki, çıxır. Artıq Taliban nəinki Pakistanda və Əfqanıstanda, eləcə də, onların yatmış hücrələri İran, Qırğızıstan, Tacikistan və s. ölkələrdə də var. Türkiyənin Əfqanıstanda rolu sadəcə yumşaq güc şəklində, yəni yardım, quruculuq, lojistika, tədris, səhiyyə və bu kimi sahələri əhatə etməlidir indi olduğu kimi”.

Kremlin Taliban kimi gücə qarşı duracaq nə maliyyəsi, nə də imkanı var

**A.Qasımov qeyd edib ki, Taliban Rusiya üçün sonun başlanğıcının hazırlanmasına zəmin yaradacaq:** ”Rusiyanın bu gücə qarşı duracaq nə maliyyəsi, nə də sona kimi imkanı var. Xüsusən də, nəzərə alsaq ki, Amerika Talibanı dəstəkləyir ”.

**Aynurə Pənahqızı**

## “Azərbaycan, Türkiyə və Pakistan əlaqələri genişlənəcək"

Asim Mollazadə: “Bu, təhlükəsizliklə yanaşı, iqtisadi, mədəni və təhsil sektorunda da özünü göstərəcək”



**Pakistan Prezidenti Arif Alvi Azərbaycanla ticarət və iqtisadi əlaqələrin genişləndirilməsinin zəruriliyini vurğulayıb. Bu barədə Pakistanın ”National Herald Tribune” qəzeti xəbər yayıb.**

Pakistandakı missiyasını başa vuran Azərbaycan səfiri Əli Əlizadəni qəbul edən Alvi bildirib ki, ikitərəfli əməkdaşlıq müxtəlif sahələrdə genişləndirilməlidir.

O, Pakistanın Azərbaycanla ikitərəfli əlaqələrini, xüsusilə ticarət, enerji, müdafiə, mədəniyyət və turizm sahələrində daha da gücləndirmək istədiyini qeyd edib. Alvi hər iki ölkənin ortaq dini dəyərləri, mədəniyyəti, eyni zamanda regional və beynəlxalq vəziyyətə bənzər baxışı olduğuna görə Pakistanın Azərbaycanla münasibətlərə xüsusi əhəmiyyət verdiyini vurğulayıb. Pakistan Prezidenti həmçinin Qarabağda işğal olunmuş torpaqların azad edilməsi münasibətilə Azərbaycan səfirini təbrik edib.

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə tərəflər arasındakı əlaqələr barədə ”Şərq”ə danışıb:**

”İki ölkə arasında dostluq, qardaşlıq münasibətləri var. Pakistan həmişə bizə mənəvi-siyasi dəstək göstərib. Silahlı qüvvələrimizin birgə təlimləri keçiriləcək. Həmçinin geniş iqtisadi əlaqələrimiz də danılmazdır. Fikrimcə, gələcəkdə Azərbaycan Türkiyə və Pakistan əlaqələri daha da genişlənəcək. Bu, təhlükəsizliklə yanaşı, iqtisadi, mədəni və təhsil sektorunda da özünü göstərəcək”.

**Kənan**



## Ruslar təxribat törədirlər

“Kremlin arzusu sərhəddəki rus hərbçilərinin sayını artırmaqdır”

**Ermənistanda daxili siyasi vəziyyət hələ ki, stabil deyil.**

Paşinyan iqtidarını bərpa etdikdən sonra Tovuz və Kəlbəcər istiqamətlərində atəşkəsin pozulması ciddi proseslərin xəbərçisi kimi qiymətləndirilir. Ola bilsin, Paşinyan ”yerini möhkəmləndirdiyini” görüb yenə ”şıltaqlıq edir”. Hərçənd bunun Rusiyanın planı və revanşistlərin həmləsi olduğu da istisna deyil.

**Politoloq Sədrəddin Soltan baş verənlər barədə ”Şərq”ə danışıb:** ”Moskva sərhəddə vəziyyətin gərginləşməsində maraqlıdır. Bildiyiniz kimi, saxlanılan erməni terrorçuları onların Azərbaycan ərazisinə keçməsinə sülhməramlıların kömək etdiyini demişdilər. Deməli, ruslar təxribat törədiblər. Kremlin istədiyi sərhəddəki rus hərbçilərin sayını artırmaqdır. Məhz bu məqsədlə gərginlik yaradılır”.

**S.Soltan, həmçinin daxili siyasi durumla bağlı da fikirlərini bölüşüb:** ”Ermənistanda baş verənlərdə Rusiyanın əli var. Seçkilərdən sonra keçmiş prezident Robert Koçaryan barədə məhkəmə prosesi bərpa edildi. Hazırda hansısa hakimiyyət dəyişikliyi mümkün deyil. Əks halda ”sponsor ölkələr” indiyədək bunu edərdilər. Görünür, onlar sabitlikdə maraqlıdırlar”.

**Kənan**

# Ankara darda qoymayacaq

*“Qırğızıstanın Türkiyənin hərbi və maliyyə dəstəyinə ehtiyacı var”*



Şuşa Bəyannaməsi Mərkəzi Asiya ölkələrinin diqqətini də cəlb edib. Türkiyə Azərbaycanla yanaşı Mərkəzi Asiya ölkələri ilə də hərbi əməkdaşlığı genişləndirir. Qazaxıstan və Özbəkistan Türkiyə ilə birgə hərbi təlimlərə və birgə hərbi texnika istehsalına üstünlük verirlər. Ankara Qırğızıstan, Türkmənistan, hətta Tacikistanı da unutmur.

Türkiyənin Müdafiə naziri Hulusi Akar bir neçə gün əvvəl Qırğızıstan və Tacikistana səfər etdi. Məlumdur ki, Qırğızıstanla Tacikistan arasındakı münasibətlərdə sərhəd gərginliyi var, son insidentdə hər iki tərəfdən itkilər olmuşdu. Ona görə də Hulusi Akarın Qırğızıstandan sonra Tacikistana səfəri doğru strategiya idi. Əks halda, yəni Hulusi Akar Qırğızıstana gedib Tacikistana getməsəydi, Düşənbə bunu Ankaranın tərəflərdən birini dəstəkləməsi kimi qiymətləndirə bilərdi.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, Qırğızıstanın yeni prezidenti Sadır Japarov ötən ay Türkiyəyə səfər edib və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanla görüşüb. Analitik bildirib ki, Qırğızıstanın Türkiyənin hərbi və maliyyə dəstəyinə ehtiyacı var. Türkiyə hər ikisini təmin edəcək:** ”Bunun əvəzində Ankara Qırğızıstandakı terrorçu başı Fətullah Gülən tərəfdarlarının Türkiyəyə verilməsini istəyir. Sadır Japarov ölkəsində Gülən tərəfdarları ilə mübarizə aparacağını vəd edib. Bundan sonra Hulusi Akar Bişkekə gedərək qırğız həmkarıyla geniş fikir mübadiləsi apardı. Akar Tacikistanda olarkən bu ölkə ilə də hərbi əməkdaşlığı genişləndirməyə hazır olduğunu bildirib. Qırğızıstan kimi Tacikistanın da Türkiyənin hərbi dəstəyinə ehtiyacı var. Bu ölkələri Əfqanıstandakı xaosa qarşı birgə mübarizə də birləşdirir. Mərkəzi Asiya ölkələri Taliban hərəkatının Əfqanıstanda yeni-yeni məntəqələr ələ keçirməsindən narahatdırlar. Taliban Mərkəzi Asiya ölkələrinin sərhədlərinə yaxınlaşıb. Türkiyə hərbçiləri ABŞ və digər NATO ölkələrindən fərqli olaraq Əfqanıstandan çıxmayacaq, Kabil hava limanını qoruyacaq. Bu mənada Türkiyənin Əfqanıstanda oynadığı rol Mərkəzi Asiya ölkələrinin də maraqlarına cavab verir”.

**Siyasi şərhçi xatırladıb ki, Türkmənistan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına qayıdacağını bəyan edib. Ekspertin fikrincə, bu da türk birliyinin və türkdilli dövlətlər arasında inteqrasiyanın xeyrinədir:** ”Rusiyanın bəzi ekspertləri ondan narazıdırlar ki, Kreml Azərbaycanda və Mərkəzi Asiyada boşluq yaradıb və bundan Türkiyə öz məqsədləri üçün məharətlə istifadə edir. Bu boşluq deyil, hadisələrin doğru istiqamətdə inkişafıdır. Kreml buna qarşı nə edə bilər ki? Azərbaycan və Mərkəzi Asiya ölkələri dili, kökü və dini bir Türkiyə ilə sıx əlaqələr qurmaq, təhlükələrə qarşı birgə mübarizə aparmaq istəyirlər. Rusiyanın yeganə dərdi isə bu ölkələri özündən asılı vəziyyətə salaraq tədricən vassala çevirməkdir. Özünə hörmət edən heç bir dövlət vassal olmaq istəmir, ona görə də bölgə ölkələri Rusiyanı deyil, Türkiyəni seçirlər”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Ermənistan bütün iddialarından əl çəkməlidir

## *Paşinyan hakimiyyətinin yeganə xilas yolu Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətlərinin qurulmasıdır*



Cənubi Qafqaz regionunda yeni reallıqlar yaranıb və proseslər bu reallıqlara əsasən cərəyan etməkdədir. Ermənistandan fərqli olaraq Azərbaycan tərəfi daim bölgədə fəal əməkdaşlıq mühitinin yaradılmasının tərəfdarı olub və bu istiqamətdə əməli fəaliyyət ortaya qoyub. Şübhə yox ki, regionun sülh və sabitlik adasına çevrilməsində Ermənistan da həvəsli olmalıdır. Çünki uzun illərdir xalqını faşist, işğalçılıq və düşmənçilik ideologiyası ilə qidalandıran Ermənistan rəhbərləri ermənilərin Azərbaycanla bağlı düşüncələrini zəhərləyiblər.

Ancaq erməni cəmiyyəti anlamalıdır ki, Ermənistanın acınacaqlı vəziyyəti rəsmi İrəvanın, əsasən də Koçaryan-Sarkisyan tendeminin nəticəsidir. Məhz revanşizmi bərpa etməyə çalışanların sayəsində Ermənistan dalan dövlətə çevrilib. Bu dalandan çıxmağın yeganə yolu isə əsassız iddialardan əl çəkmək, Azərbaycan və Türkiyə ilə qonşuluq və sülh şəraitində yaşamaqdan ibarətdir. Bununla bağlı rəsmi Bakı və Ankaradan Ermənistana dəfələrlə çağırış edilib. Vurğulanıb ki, iki dövlət arasında qanuni sərhədlərin demarkasiya və delimitasiya prosesi ən qısa zamanda yekunlaşmalı, kommunikasiyalar bərpa olunmalı, bölgə sülh dövrünə qədəm qoymalıdır. Ermənistan hökumətinə sülh çağırışları sadəcə Azərbaycan və Türkiyədən deyil, Avropa ölkələri və Rusiyadan da gəlməkdədir. Rusiyalı alim, türkoloq Viktor Nadein-Rayevski Ermənistan KİV-ə müsahibəsində bildirib ki, İrəvan Ermənistan-Türkiyə, o cümlədən Ermənistan-Azərbaycan münasibətlərinə dair bütün iddialarından və tələblərindən tamamilə imtina etməlidir. Alim vurğulayıb ki, əgər Ermənistan sülh və həmrəylik şəraitində yaşamaq istəyirsə, bu ölkə qonşularına olan iddialarından əl çəkməlidir. Onun sözlərinə görə, seçkilərdən sonra Ermənistanın xarici siyasətində böyük çağırışlarla yeni mərhələ başlanacaq: "Yaxın zamanlarda bütün sərhəd məsələləri tənzimlənəcək, Naxçıvan və Azərbaycanı birləşdirən Zəngəzur dəhlizi qurulacaqdır. Qeyd etmək lazımdır ki, müəyyən ərazilərin hələ də ermənilərin nəzarətində qalması Azərbaycan üçün bu münaqişənin tam şəkildə həll olunmaması anlamına gətirib çıxarır. Mən bu məsələlərin necə müzakirə ediləcəyini və Ermənistanın hansı mövqe tutacağını təsəvvür belə etmirəm. Çünki Ermənistan hakimiyyətindən bir dənə də olsa məntiqli açıqlama gəlmir. Lakin əminliklə bildirmək istəyirəm ki, yaxın günlərdə İrəvanın mövqeləri daha aydın olacaq və vəziyyət tənzimlənəcək".

Xarici işlər nazirimiz Ceyhun Bayramov iyulun 2-də Bakıda qırğızıstanlı həmkarı Ruslan Kazakbayevlə görüşü zamanı da bəyan edib ki, qonşu dövlətlərə qarşı qanunsuz tələblərin irəli sürülməsi və bu cür addımların atılması siyasətinin heç bir perspektivi yoxdur: "Ermənistanda bunun əksini düşünənlər varsa onlar 30 illik təcavüz siyasətinin nəticəsi olaraq bugünkü vəziyyətə nəzər salsınlar və nəticə etibarilə bunun Ermənistana nə verdiyini özləri təhlil etsinlər". Nazir təcavüz siyasətinin bumeranq effekti verdiyini bildirib: "Biz uzun illər deyirdik ki, təcavüz siyasətinin sonu yoxdur, qonşularla münasibətlər normallaşmalıdır, ölkələr arasında beynəlxalq sərhədlər müəyyən edilməlidir. Ermənistan cəmiyyəti də bu siyasətin ağır nəticəsini görür". Erməni ekspertlər də bildirirlər ki, qarşıdakı dövrdə Nikol Paşinyanın rəhbərliyi ilə Ermənistan hakimiyyəti konstruktiv mövqe nümayiş etdirərsə, işğalçı ölkə artıq formalaşmış yeni geosiyasi reallığın yaratdığı imkanlardan bəhrələnə və dinc həyatını qura bilər. Başqa sözlə, Prezident İlham Əliyevin təqdim etdiyi sülh və əməkdaşlıq modelinə üstünlük verilərsə, Ermənistan üzləşdiyi böhrandan yaxa qurtarar.

**Millət vəkili Ceyhun Məmmədov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan dövlət başçısı cənab İlham Əliyev bu barədə dəfələrlə fikirlərini bəyan edib və rəsmi Bakının mövqeyini ortaya qoyub. Deputatın sözlərinə görə, Ermənistan ərazi iddialarına birdəfəlik son qoymalı, iki ölkə arasında yekun sülh razılaşması barədə sənəd imzalanmalıdır:** "Təbii ki, ilk növbədə sərhədlər müəyyənləşməli, bölgədə vəziyyət tam stabilləşməlidir. Ermənistan rəhbərliyi, xüsusən yeni hökumət dərk etməlidir ki, dövlətin, erməni xalqının düşdüyü acınacaqlı durumdan yeganə xilas yolu Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibətlərinin qurulmasıdır. Əgər Ermənistan hökuməti bu reallığı nə qədər tez anlayarsa, bölgəmizə sülh və əminamanlıq bir o qədər tez gələr. Əks halda bu məsələ cənab Prezidentin qəti iradəsi ilə həll olunacaq".

*Parlament üzvünün sözlərinə görə, Ermənistanda seçki dönəmi idi və qeyri-müəyyənlik hökm sürürdü. Ona görə də bir müddət gözlədik ki, proseslər yekunlaşsın:* "Artıq seçki arxada qalıb. Ermənistan da bölgədəki yeni reallığa ayaq uydurmaq məcburiyyətindədir. Əsas tələbimiz budur və bununla bağlı beynəlxalq ictimaiyyəti mütəmadi məlumatlandırırıq. Ermənistan tez zamanda tələblərə əməl etməlidir. Fikrimcə, İrəvan hökuməti mövcud reallığı tezliklə anlayacaq. Yanlış mövqeyini düzəldəcək və bölgə xalqları ilə normal münasibət quracaq. Yekun sülh sazişi də imzalanacaq. Əgər ermənilər israrla düşmənçiliyi davam etdirsələr, yenidən dərslərini alacaqlar. Bundan heç kimin şübhəsi olmasın".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Türkiyə hazırda çox maraqlı siyasət yürüdür"

## *"Əslində bu siyasət Əbdül Həmid siyasətinin davamıdır"*




Eyni vaxtda iki yüksək vəzifəli türk məmurunun geosiyasi proseslərin episentrinə çevrilməkdə olan Orta Asiyaya işgüzar səfəri ermənilərin nəzarətində olan rus KİV-lərinin xüsusi diqqət mərkəzindədir. Bu media orqanlarında Hulusi Akarın Qırğızıstana, Türkiyə prezidentinin baş köməkçisi Fuad Oktayın isə Özbəkistana səfəri erməni maraqlarına muzdla xidmət edən bəzi rusiyalı "ekspertlər" tərəfindən növbəti dəfə vay-şüvənlə qarşılanıb. Bəs, Türkiyənin Orta Asiyada güclənməsi əslində kimləri daha çox narahat edir?

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli deyib ki, biz buna ancaq bir türk dövlətinin güclənməsi kimi baxmamalıyıq. Politoloq qeyd edib ki, buna bir az qlobal və miqyaslı yanaşmalıyıq:** "Türkiyə hansı ölkədir? Türkiyə son islam xilafəti olan Osmanlının varisidir. Qeyd edək ki, son yüz ildə müsəlmanlar dünya siyasətində bütün mövqelərini veriblər. Türkiyənin dirçəlməsi isə yenidən müsəlman dünyasının, Türkiyə başda olmaqla verilən mövqelərin qaytarılması deməkdir. Bu məsələyə məhz bu prizmadan yanaşmalıyıq. Bu da təbii ki, xristian dünyasının hegemonluğunun yenidən sonu ola bilər. Buna görə də bu xristian ölkələri olan ABŞ, Rusiya, Fransa, Almaniyanın maraqlarına cavab vermir. Əlbəttə ki, təkcə söhbət burda xristian ölkələrindən getmir. Çinin də, Hindistanın da bu məsələ maraqlarına cavab vermir. Çünki vaxtilə Hindistan müsəlmanların fəthi altında yaşayan bir ölkə olub, yəni əvvəllər onu müsəlmanlar idarə edib. Ona görə də Türkiyənin güclənməsi heç bir dövlətin marağına cavab vermir".

**Ə.Məmmədli qeyd edib ki, amma dünya ölkələrinin Türkiyəyə çox ehtiyacı var:** "Türkiyə hazırda çox maraqlı siyasət yürüdür. Əslində bu siyasət Əbdül Həmid siyasətinin davamıdır. Necə ki, osmanlıların maraqlarına görə, Əbdül Həmid vaxtilə böyük dövlətlərin qarşıdurmasına istifadə edirdi, indi də Ərdoğan bununla məşğuldur. Amma tam fərqli formada. Fərqi ondadır ki, Əbdül Həmid dövründə Osmanlı çöküş vaxtını yaşayırdı, ancaq Ərdoğan dövründə Türkiyə yüksəlişə doğru gedir. Təbii ki, bunlar fərqli dönəmlərdir. Ona görə də Türkiyəyə hazırda çox ehtiyac duyulur. Həmçinin, qeyd edim ki, Amerika elə-belə Türkiyənin tərəfini vermir. Hazırda NATO-nun artıq Türkiyəyə daha çox ehtiyacı var, nəinki Türkiyənin NATO-ya. Çünki NATO Rusiya və daha uzaq gələcəkdə Çinlə qarşıdurmanı nəzərə alıb. Ona görə də burda Türkiyə kimi güclü hərbi dövlətin Qərb blokunun içində olması Qərb ölkələrinin başda ABŞ-ın maraqlarına cavab verir. Təbii ki, Türkiyə böyüməkdə davam etsə, Qərb ölkələrinin Türkiyəyə ehtiyacı daha da çoxalacaq. Habelə, bu ehtiyac Rusiyada da, Çində də yaranacaq. Təbii ki, bunlar hamısı yalnız Türkiyənin güclənməsindən və irəli getməsindən asılı olacaq".

"Fərq ondadır ki, Əbdül Həmid dövründə Osmanlı çöküş vaxtını yaşayırdı, ancaq Ərdoğan dövründə Türkiyə yüksəlişə doğru gedir"

**Aynurə Pənahqızı**

# Qəzetçiliyə könüldən bağlanıb




## Mətbuat Şurasında Ağahüseyn Hüseynovun 80 illik yubileyinə həsr olunmuş toplantı keçirilib



Bu gün Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru, Əməkdar jurnalist Ağahüseyn Hüseynovun 80 illik yubileyinə həsr olunmuş toplantı təşkil olunub. Tədbiri giriş sözü ilə MŞ sədri Əflatun Amaşov açaraq bildirib ki, rəhbərlik etdiyi qurum ömrünü-gününü jurnalistikaya həsr etmiş qələm adamları ilə bağlı tədbirləri ənənəyə çevirib.

Bu, həm onların həyat yolunun gənc nəslə çatdırılması, həm də bu adamların əməyinə dəyər baxımından son dərəcə önəmlidir: "Əməyinə, şərəfli ömür yoluna qiymət verilməsi mütləq olan həmkarlarımızdan biri də ömrünün 80-ci ilinə qədəm qoymuş respublikanın Əməkdar jurnalisti, "Bakı" və "Baku" qəzetlərinin baş redaktoru Ağahüseyn Hüseynovdur. Ağahüseyn müəllim sözün əsl mənasında peşə fədaisidir. O həm ziyalıdır, publisistdir, həm də qəzet işinin mahir bilicisidir. Ən əsası isə Ağahüseyn müəllim jurnalistikaya misilsiz sədaqəti ilə nümunədir. Onun jurnalist fəaliyyəti, xüsusən də ustad Nəsir İmanquliyevin təməlini qoyduğu "Bakı" və "Baku" qəzetlərindəki əməyi bunu deməyə əsas verir. Ağa müəllimi təbrik edir, ən xoş arzularımı bildirirəm".

Azərbaycan Dövlət İnformasiya Agentliyinin baş direktor müavini Dağbəyi İsmayılov yubilyarla "Bakı"-"Baku" qəzetində birgə çalışdığı illərdəki xatirələri yada salıb. O, A.Hüseynovun çox çətin dövrdə adıçəkilən mətbuat orqanlarına rəhbərlik etməyə başladığını, bunun son dərəcə böyük məsuliyyət olduğunu xatırladıb.

"Bakı" və "Baku" qəzetlərinin baş redaktor müavini Ənvər Məşədiyev çıxışında A.Hüseynovu əxz etdiyi, ona irsən keçən həyat fəlsəfəsindəki dürüstlüyü, məsuliyyəti, səmimiliyi, qayğıkeşliyi jurnalistikaya da gətirməyi bacarmış qələm adamı, peşəkar idarəçi kimi səciyyələndirib, xatirələrini bölüşüb.

Əməkdar jurnalist Zemfira Məhərrəmli bildirib ki, yubilyar peşəsinə könüldən bağlanması ilə seçilib. O, bu bağlantıda rəhbər həssaslığının mühüm amil olduğunu xatırladıb. "Xalq qəzeti"nin əməkdaşı, "Bakı" və "Baku" qəzetlərində jurnalistlik fəaliyyəti keçmiş İlqar Rüstəmov böyük Nəsir İmanquliyevin rəhbərlik etdiyi qəzetləri məktəb adlandırıb. O, bu məktəbin A.Hüseynov kimi məzununun olmasını Azərbaycanın ictimai mühitinin mühüm tapıntısı kimi dəyərləndirib. Poliqrafçı alim Şəddat Cəfərov da çıxışında A.Hüseynovu işinin peşəkarı olan bütöv şəxsiyyət kimi dəyərləndirib. O, həmçinin yubilyarın həyat yolunun örnək mahiyyət daşıyan müxtəlif cəhətlərindən söz açıb. Filologiya üzrə fəlsəfə doktoru Şərəf Cəlilli çıxışında bu qəzetlərin ustad jurnalist Nəsir İmanquliyevin yadigarı olduğunu vurğulayıb. O, eyni zamanda bildirib ki, N.İmanquliyev "Bakı"-"Baku" ilə Azərbaycanda ictimai fikrin milli ruh zəminində dirçəldilməsinə, ana dilinin yaşadılmasına böyük töhfələr vermişdi.

"Xalq qəzeti"nin baş redaktor müavini Tahir Aydınoğlu, veteran jurnalistlər - Mehman Fərzullayev, respublikanın Əməkdar jurnalisti Rəhim Hüseynzadə, naşir və publisist Zülfüqar Şahsevənli və başqaları Ağahüseyn Hüseynovu jurnalist peşəsinin təəssübünü çəkən, gördüyü işlə peşəyə dəyər qazandıran həmkar və ziyalı kimi xarakterizə edib, təbriklərini çatdırıb, xoş istək və arzularını dilə gətiriblər.

*Qeyd edək ki, Ə.Amaşov Ağahüseyn Hüseynovu Azərbaycan Mətbuat Şurasının diplomu ilə təltif edib. Sonda çıxış edən A.Hüseynov həyat və fəaliyyətinə verilən yüksək qiymət və dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirib.*

**Aynurə Pənahqızı**



# Media intihar hadisələrini yaymamalıdır

## Bununla sanki insanlara çıxış yolu göstəririk

**Şəki rayonunda intihar hadisəsi baş verib. Bu barədə hüquq-mühafizə orqanlarından məlumat verilib. Rayonun Bideyiz kənd sakini Cumay İbadullayev yaşadığı evin həyətində özünü asıb. Mərhumun beş övladı var.**

Təəssüf ki, intiharların səbəbi araşdırılıb, çıxış yolları üçün mətbuatda müəyyən fikirlər səsləndirilsə də, vəziyyət dəyişmir. Bədbəxt hadisələrin aradan qaldırılması istiqamətində geniş maarifləndirmə aparılsa da, mövcud durum gündən-günə pisləşir.

**Mövzu barədə "Şərq"ə danışan jurnalist Aygün Muradxanlı belə hadisələrin mətbuatda tirajlanmasına qarşı olduğunu deyib:** "Avropada və inkişaf etmiş bütün ölkələrdə çoxdan sübut edilib ki, intihar haqqında yazmaq olmaz. Çünki bu barədə xəbər tirajlamaq jurnalistikanın etik kodeksinə ziddir. İntihar barədə yazmaq o deməkdir ki, insanlara çıxış yolu göstəririk, yəni belə bir çıxış yolu var, buna da əl ata bilərsiz. Ona görə də bu barədə xəbərlər yaymaq düzgün deyil".

**Yeganə Bayramova**

# 3 nəfərdə mobil telefon aşkar edildi

## Onlar imtahandan xaric olunublar

Əvvəlki illərin məzunları üçün qəbul imtahanının I mərhələsi, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə və 11 illik təhsil bazasında kolleclərə qəbul imtahanı, qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan, müsabiqədə buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı, aprel ayında keçirilən buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyən XI sinif şagirdləri üçün buraxılış imtahanı və eksternat qaydasında imtahan verənlər üçün buraxılış imtahanı keçirilib.

Pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (xüsusi geyim, əlcək, üz siperi, tibbi maska) təmin olunub. İmtahanlar 12 şəhər və rayonda təşkil olunub. İmtahanların təşkili edilməsi üçün ümumilikdə 44 imtahan binası, 728 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 44 ümumi imtahan rəhbəri, 124 imtahan rəhbəri, 889 nəzarətçi-müəllim, 88 buraxılış rejimi əməkdaşı, 44 bina nümayəndəsi ayrılıb. Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib. İmtahan keçirilən binaların qarşısında sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilib. İmtahan binasına buraxılış rejiminin növbə ilə - lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunub. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahanın gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, iştirakçılara öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.



İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub. İştirakçıların bədən hərarəti normaya uyğun olub. Bugünkü imtahanlarda nəzarətçilər tərəfindən 3 nəfərdə mobil telefon aşkar edilib və onlar imtahandan xaric olunub. İyulun 3-dən etibarən DİM-də imtahan protokolları və cavab vərəqlərinin emalı aparılacaq. İmtahanlarda istifadə olunan açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin yaxın 2 həftə ərzində elan olunması nəzərdə tutulur.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən təhsil eksperti Elşən Ramizoğlu bir sıra məqamlara toxunub. O qeyd edib ki, ümumiyyətlə, imtahanlarda qaydaqanundan kənar hərəkət etmək qadağandır:** "İmtahanda saxta sənəd gətirmək, öz yerinə başqasını göndərmək, mobil telefon, digər rabitə vasitələri, konspekt lüğət və s. yardımçı vasitələrdən istifadə etmək qadağandır. Təhsilalan imtahan başlamazdan əvvəl bu məlumatlar ilə tanış olur, razılaşır və öz imzası ilə qol çəkir. Qanuni cəhətdən baxsaq, ümumtəhsil pilləsində "Təhsilalanların yekun attestasiyasının aparılması qaydaları haqqında" Nazirlər Kabinetinin qərarının 2-ci bəndində göstəridiyi kimi bu hallar aşkar edilərsə, şagirdin imtahan nəticələri ləğv edilir. Bu halda təhsilalan inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malikdir".

**E.Ramizoğlu ötən gün müxtəlif bölgələrdə keçirilmiş imtahanlara da toxunub:** "Təbii ki, indidən imtahan nəticələri haqqında nəsə demək tezdir. Ancaq ümumi olaraq demək istəyirəm ki, bəzi şagirdlər sualların çətinlik səviyyəsindən narazı olublar. Bildiyiniz kimi, pandemiya dövründə şagirdlər tədrisdən müəyyən qədər geri qalıblar. Və görünən odur ki, bu amilin də öz mənfi təsirləri olub".

**Aynurə Pənahqızı**

# Cəmiyyəti böyük bəladan xilas etməyin zamanıdır



*“Qadının şəxsiyyət kimi əzilməsi ona psixoloji təzyiqdən başlayır”*

Braziliya parlamentinin yuxarı palatası qadınlara qarşı psixoloji zorakılığı cinayət kimi tanıyaraq Cinayət Məcəlləsinə müvafiq dəyişiklikləri yekdilliklə qəbul edib.

Növbəti mərhələdə müvafiq sənəd ölkə prezidenti tərəfindən imzalanmalıdır.

Sənədə əsasən, bu cinayət təhdid, qorxu, təhqir, manipulyasiya, izolyasiya, şantaj, ələ salma, hərəkət azadlığının və digər haqlarının məhdudlaşdırılması yolu ilə qadınlara zərər verən, tam inkişafına mane olan, onu kiçiltmək və onun hərəkətləri üzərində nəzarət yaratmaq məqsədi ilə qadının psixoloji səhhətinə mənfi təsir göstərəcək mənəvi ziyan vurmaqdan ibarətdir. Eyni zamanda, millət vəkilləri qadınlara bədən xəsarəti yetirməkdən məsul olanlar üçün maksimal həbs müddətini dörd ilə qədər artırıblar.

Qadınlara qarşı psixoloji zorakılığın cinayət tərkibli hesab edilməsindən zərif cinsin nümayəndələri nə əldə edəcək? Psixoloji təzyiqə məruz qalmaq qadınlarda hansı mənfi hallar yaradır, qadının həyatına hansı formada təsir edir?

**Bu suallarla psixoloq Fərqanə Mehmanqızına müraciət etdik. Psixoloq qeyd etdi ki, əlbəttə, psixoloji cəhətdən əzilmiş qadın zatən sonradan fiziki zorakılığa boyun əyib illərlə özünün bir fərd, şəxsiyyət kimi məhv edilməsinə icazə verir. Qadının şəxsiyyət kimi əzilməsi ona psixoloji təzyiqdən başlayır:**

- Psixoloji təzyiq özgüvənsizliyə, somatik və xroniki depresiyaya gətirib çıxarır və sonra da sui-sidlik yaradır. Psixoloji özgüvənsiz, əzilmiş qadının ailəyə, cəmiyyətə, özünə artıq heç bir xeyri

Psixoloji zorakılığa məruz qalmış qadının cəmiyyətə, ailəyə, özünə heç bir xeyri dəyməz

dəyməz. Belə qadın sağlam nəsil yetişdirə bilməz, övladı ilə psixoloji harmoniya yarada bilməz. Bütün bunlar cəmiyyətdə harmoniyanın pozulmasına gətirib çıxaran amillərdir. İntihara meyillilik də belə yaranır, həm qadınlar, həm uşaqlar arasında. Həmçinin kişilər arasında da. O cəmiyyət təhlükəlidir ki, orada harmoniya pozulub. Bu mənada Braziliya parlamentinin qəbul etdiyi qərar cəmiyyətin xilasına hesablanıb.

**Məlahət**

# Ət indi çox tez xarab olan qidadır

*Sanitar qaydalara əməl etməyən kəsim yeri sahibləri sərt cəzalandırılmalıdır*



Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bir sıra heyvan kəsimi məntəqəsində monitorinq aparıb. Qurumdan verilən məlumata görə, əksər heyvan kəsimi məntəqələri qanunsuz fəaliyyətini hələ də davam etdirməkdədir. Qaradağ rayonu üzrə 11, Nizami rayonu üzrə 3 qanunsuz fəaliyyət göstərən heyvan kəsimi məntəqəsi aşkar edilib.

Sanitariya-gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında satış məqsədi üçün heyvan kəsimi hallarının qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir. Ancaq bu sahədəki xoşagəlməz halların aradan qaldırıldığının şahidi olmuruq. Təəssüf ki, bu durumda insan sağlamlığı ciddi təhlükə altındadır. Bəs, alternativ olaraq hansı tədbirlər görülməlidir ki, neqativliklər aradan qalxsın?

**Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyevin ”Şərq”ə açıqlamasına görə, qida məhsulları ilə əlaqədar adi bir pozuntuya yol verilməsi məhsulun korlanmasını şərtləndirir:** ”Bilirik ki, yüksək keyfiyyətli hazır məhsul istehsalı ilkin olaraq xammalın keyfiyyətli olması ilə şərtlənir. Xammalın keyfiyyətli olması isə ətin kəsimindən asılıdır. Ət kəsimi zamanı sanitar qaydalar və normativ tələblər ödənilmirsə, deməli, məhsul bioloji çirklənmiş hesab edilir. Sonradan nə qədər emal edilsə də, həmin ətin keyfiyyət göstəriciləri aşağı düşür. Məlumdur ki, ət tez xarab olan qidalar qrupuna aiddir. Antisanitar vəziyyətdə ətin üzərində olan yoluxmuş mikroorqanizmlər məhsulu korlayır. Aparılan monitorinqlərin ara məsafəsini qısaltmaq lazımdır. Çünki bəzi hallarda standartların tələbini təmin edən şəraiti yaradırlar, ancaq bir neçə müddət sonra həmin şərait pozulur və nəticədə antisanitar durum meydana çıxır. Hansı ki, biz də orada kəsilən ətlərdən istifadə edirik. Beləliklə, orqanizmdə müxtəlif xəstəliklər yaranır”.

*Ekspert qeyd edib ki, tələbləri təmin etməyən ət istehsalçıları varsa, onlar hüquq-mühafizə orqanları tərəfindən məsuliyyətə cəlb olunmalıdır:*

”Birini tutub sonra azadlığa buraxırıqsa, 10 gündən sonra eyni durum təkrarlanır. Ona görə də bu sahədə xoşagəlməz hallar bitmir. Ət istehsalçıları mütləq məsuliyyətə cəlb olunmalıdır”.

**Yeganə Bayramova**

# Hamı gözəl bilir ki, hansı küçədə narkotiki kim satır

Real həyatın virtuala daşınması sosial şəbəkələrdə kriminala da geniş imkanlar yaradıb. Ən pisi isə odur ki, internet üzərindən narkotiklərin satışı sürətlə genişlənir. Narkomafiyaların internetin imkanlarından narkotik satışının təşkili üçün istifadəsi artıq acı reallıqdır.



*Elə etməliyik ki, əhalinin özü narkotiklə mübarizə prosesinə qoşulsun*

Təəssüf ki, narkotik satışı yalnız paytaxtda deyil, bölgələrə də geniş ayaq açıb. Bu da mövcud vəziyyətin olduqca təhlükəli olmasından xəbər verir.

Vəkil Aslan İsmayılov məsələ ilə bağlı feysbuk hesabında yazıb: ”Narkomaniyanın qarşısını almaq üçün anonimlik təmin olunmalıdır. Xüsusi bir qaynar xətt açılmalıdır. Anonimliyə təminat verilməlidir ki, vətəndaşlar müraciət etsinlər. Hamı gözəl bilir ki, küçədə, həyətdə narkotiki kim satır. Yalnız dövlət qurumları yox, vətəndaş cəmiyyəti də narkomaniyanın qarşısını almaq üçün səfərbər olmalıdır”.

**Sosioloq-alim Əhməd Qəşəmoğlu ”Şərq”ə açıqlamasında bildirib ki, narkomaniyanın geniş yayılmasının günahını hansısa təşkilatların üzərinə atmaq düzgün deyil:** ”Hüquq-mühafizə orqanları prosesə nəzarəti həyata keçirir. Amma onların içindəki şəxslər də narkotiklərin yayılmasına köməklik edirlər. Dünyanın bütün ölkələrində bu proses geniş vüsət alıb. Çalışmalıyıq ki, cəmiyyətin özü mübarizə aparsın. 30 il öncə belə problemləri həll edəndə daha çox inzibati yollara üstünlük verilirdi. Amma cəmiyyət günü-gündən mürəkkəbləşib həssaslaşdıqca, insanların informasiyası artdıqca problemi inzibati yollarla tənzimləmək mümkün deyil. Effektiv tədbirlərin görülməsi üçün ölkəmizdə çox güclü sosial iş şəbəkəsi yaradılmalıdır. Belə işçilər olduqda cəmiyyətdəki narkotiklə bağlı duruma ictimai nəzarəti gücləndirə bilərik”.

**Sosioloqun fikrincə, elə etmək lazımdır ki, əhalinin özü narkotiklə mübarizə prosesinə qoşulsun:**

”İnsanları məcbur etmək mümkün deyil. Çünki cəmiyyət mürəkkəbləşib. Kimisə qorxutmaqla nəticə əldə etmək olmaz. Rayonlarda narkotik təbliği genişlənibsə, deməli, bu işi həyata keçirən satış şəbəkələri xeyli aktivləşiblər. Ona görə də prosesə din xadimlərini cəlb etməliyik. Din xadimləri elə bilirlər ki, işləri ancaq ölü basdırmaq və hüzn mərasimlərini keçirib pul qazanmaqdır. Ancaq ölkənin mənəviyyatla bağlı məsələlərində də yaxından köməklik göstərməlidirlər”.

**Yeganə Bayramova**

## Milyonların “arxasına keçən”lər var

“Onları unudub bələdiyyələri tənqid obyektinə çevirmək ədalətsizlikdir”



**Ağstafa rayonunun Tatlı kənd bələdiyyəsində yol verilən qanunsuzluqlarla bağlı daxil olmuş müraciət əsasında rayon Prokurorluğunda araşdırma aparılıb.**

Bu barədə Ağstafa Rayon Prokurorluğundan məlumat verilib. Aparılan araşdırma ilə müəyyən edilib ki, Tatlı bələdiyyəsinin sədri Qənbər İsmayılov xidməti vəzifələrinin icrası ilə əlaqədar özü üçün qanunsuz üstünlük əldə etmək məqsədilə qulluq səlahiyyətlərindən istifadə edib. Sədr 2017-ci ildə ayrı-ayrı şəxslərə ümumilikdə 5 min manat məbləğində pul müqabilində hər biri 0,12 ha olmaqla torpaq sahəsi sataraq onları 2006-cı il tarixinə sənədləşdirib. Beləliklə, Qənbər İsmayılov rəsmi sənədlərə bilə-bilə yalan məlumat daxil etməklə vəzifə saxtakarlığı edib.

Qənbər İsmayılov Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə məsuliyyətə cəlb edilib. Hazırda iş üzrə istintaq davam edir. **Millət vəkili Razi Nurullayev bələdiyyə sədrinin qanunsuz fəaliyyəti barədə fikirlərini “Şərq”lə bölüşüb:** “Niyə hamımız bələdiyyələrin üstünə düşürük? Axı onların maddi vəziyyəti heç də yaxşı deyil. Xüsusilə, bələdiyyə üzvlərinin rifahı pisdir. Hər bələdiyyənin büdcəsi ən yaxşı halda 10 min manat ola bilər. Bu, çox cüzi məbləğdir. Odur ki, qanunsuz əməllərə əl atırlar. Həm də bir neçə bələdiyyəyə görə onların hamısını günahlandırmaq doğru deyil”.

**R.Nurullayevin fikrincə, daha böyük problemlər var:** “Bələdiyyələr min, iki min, üç min manat pul mənimsəyə bilərlər. Halbuki, milyonların “arxasına keçən”lər var. Onları unudub bələdiyyələri tənqid obyektinə çevirmək ədalətsizlikdir. Təbii ki, cəmiyyətin bütün strukturlarında olduğu kimi, bələdiyyələrdə də şəffaflıq hökm sürməlidir”.

**Kənan**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Xaçmaz rayon İcra Şöbəsinin 29.04.2021-ci il tarixli, 306/20 saylı sifarişi ilə, Xaçmaz rayonu, Çarxı kəndində yerləşən 0.77 ha, 2.31 ha, 4.59 və 0.6088 ha torpaq sahəsinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi satış qiyməti olan 95.710 (doxsan beş min yeddi yüz on) manatdan 20% aşağı, yəni 76.568 (yetmiş altı min beş yüz altmış səkkiz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 3.828 (üç min səkkiz yüz iyirmi səkkiz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 20.04.2021-ci il tarixli, 5200-61526/21-15-26 saylı sifarişi ilə, 2 ədəd əyari 750, çəkisi 15.9 qram, üzərindəki qaşların dəyəri 4 karat olan sırğaya dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qızıl sırğa satış qiyməti olan 13.528 (on üç min beş yüz iyirmi səkkiz) ABŞ dollarından 20% aşağı, yəni 10.822 (on min səkkiz yüz iyirmi iki) ABŞ dollarına təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 1.082 (bir min səksən iki) ABŞ dolları miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Sumqayıt şəhəri üzrə İcra İdarəsinin 30.04.2021-ci il tarixli, 62/44 saylı sifarişi ilə, Sumqayıt şəh., Novxanı bağ massivi, 0,0350 hektar olan 4801D bağ sahəsinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin bağ sahəsi satış qiyməti olan 23.800 (iyirmi üç min səkkiz yüz) manatdan 20% aşağı, yəni 19.040 (on doqquz min qırx) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 952 (doqquz yüz əlli iki) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Xaçmaz rayon İcra Şöbəsinin 29.04.2021-ci il tarixli, 307/20 saylı sifarişi ilə, Xaçmaz şəhəri, Nizami küçəsi, 5 saylı ünvanda yerləşən fərdi yaşayış evinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin fərdi yaşayış evi satış qiyməti olan 34.000 (otuz dörd min) manatdan 20% aşağı, yəni 27.200 (iyirmi yeddi min iki yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 1.360 (bir min üç yüz altmış) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Xaçmaz rayon İcra Şöbəsinin 18 may 2021-ci il tarixli, 355/20 saylı sifarişi ilə, Xaçmaz rayonu, Köhnə-Xaçmaz kəndində yerləşən 0.80 ha, 0.20 ha, 0.10 ha və 0.39 ha kənd təsərrüfatı təyinatlı və Xaçmaz rayonu, Müqtədir qəsəbəsində yerləşən 0.06 ha həyətyanı torpağa dair 01 iyul 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahələri satış qiyməti olan (0.80 ha torpaq sahəsi) - 18.000; (0.20 ha) - 10.800; (0.10 ha) - 9.000; (0.39 ha) - 21.600; (0.06 ha) - 2.700 manatdan 20% aşağı, yəni (0.80 ha torpaq sahəsi) - 14.400 (on dörd min dörd yüz); (0.20 ha) - 8.640 (səkkiz min altı yüz qırx); (0.10 ha) - 7.200 (yeddi min iki yüz); (0.39 ha) - 17.280 (on yeddi min iki yüz səksən); (0.06 ha) - 2.160 (iki min bir yüz altmış) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni (0.80 ha torpaq sahəsi) - 720 (yeddi yüz iyirmi) manat; (0.20 ha) - 432 (dörd yüz otuz iki) manat; (0.10 ha) - 360 (üç yüz altmış) manat; (0.39 ha) - 864 (səkkiz yüz altmış dörd) manat; (0.06 ha) - 108 (bir yüz səkkiz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;

6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

7) Şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.

9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;

10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

**Məlumat**

Şəmkir rayon İcra İdarəsinin 02.06.2021-ci il tarixli, 1701/2021-12 saylı sifarişi üzrə, Şəmkir şəhəri, Ü.Hacıbəyov küçəsi, 2-ci döngə, 4 saylı ünvanda yerləşən 0,05 ha torpaq sahəsi və 3 otaqdan, mətbəx, zal, hamam və tualetdən ibarət, ümumi sahəsi 119,1 kv.m. olan 1 (bir) mərtəbəli, orta təmirli fərdi yaşayış evinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

*"Əmlak Hərrac Mərkəzi" MMC*

---

**Məlumat**

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 144355/2019-12 saylı sifarişi üzrə, Şəmkir şəhərində yerləşən 0,8281 ha torpaq sahəsinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

*"Əmlak Hərrac Mərkəzi" MMC*

---

**Məlumat**

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 7185-240154/2018-15-27 saylı, 10.06.2021-ci il tarixli sifarişi üzrə, 1 (bir) ədəd balans aparatı (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd yağ dəyişən aparat (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd tozsoran dərmanvurma aparatı ilə birgə (istifadə olunmuş vəziyyətdə), 3 (üç) ədəd başakçı təkər qaldırıcı (istifadə olunmuş vəziyyətdə), 2 (iki) ədəd təkər açan (istifadə olunmuş vəziyyətdə), 1 (bir ədəd) yuyucu aparat (işləmir), 1 (bir) ədəd kompressor (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd təkər sökən (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd avtomobil qaldırıcıya (istifadə olunmuş vəziyyətdə) dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş açıq hərracın iştirakçısı olmadığından hərrac baş tutmamışdır.

*"Əmlak Hərrac Mərkəzi" MMC*

## "Yaşlı insandır, boş verək"

### Elməddin Cəfərov Əməkdar artistə cavab vermədi



**Əməkdar artist Vahid Əliyev "Lent.az"a açıqlamasında aktyorlar Elməddin Cəfərov, Fərda Xudaverdiyev və Müşfiq Şahverdiyevə irad bildirib. O deyib ki, Fərdanı, Elməddini, Müşfiqi aktyor hesab eləmir.**

Aktyor söyləyib ki, E.Cəfərov universitetin tarix fakültəsini bitirib:

"Bir dəfə Elçin Əlibəyli məndən soruşdu ki, Elməddin necə aktyordur? Dedim ki, bu dəqiqə deyərəm. Başa düşdüm ki, Elçin ürək sözlərini mənim vasitəmlə demək istəyir. Elməddindən soruşdum ki, Ədil İsgəndərov kimdir? Söylədi ki, bilmirəm. Onların savadı yoxdur".

**"Şərq" də əməkdar artistin ittihamlarına cavab almaq üçün E.Cəfərovla əlaqə saxlayıb. O, danışmaq istəmədiyini bildirib:**

"Allah ona can sağlığı versin. Xətrini çox istəyirəm. Amma bu haqda danışmayacam. Yaşlı insandır, boş verək".

**Samirə**

## Türkan nöqtəni qoydu

### "Subayam, evlənməmişəm"



**Müğənni Türkan Vəlizadənin bir il əvvəl "Üçümüz" verilişində söylədikləri yenidən gündəm olub.**

"Şərq" xəbər verir ki, o, sözügedən proqramda sosial şəbəkə istifadəçilərinin suallarını cavablandırıb. Bir izləyicisinin "Evli olmusunuz" sualına belə cavab verib:

"İnstaqramda yazılanları oxuyuram. Fikirləşirəm. Elə şey yazırlar ki, deyirəm, bunlar mənə aid deyil axı. Haradan çıxarırlar? Necə oldu ki, bir dəfə ailə qurmuşam, özümün xəbərim yoxdur?! Subayam, evlənməmişəm. İnşallah qismət olar, ailə quraram".

**Samirə**

## Mənzurə iddialı danışdı

### "Azərbaycanın yarısı mənə eşq elan edib"



**Müğənni Mənzurə Musayeva "Heç vaxt heç yerdə" proqramında qonaq olub. O, bir sıra iddialı açıqlamalar verib.**

"Şərq " xəbər verir ki, həmin buraxılış hələ yayımlanmasa da, fraqmenti izləyicilərə təqdim olunub. M.Musayeva bunları söyləyib: "Azərbaycanın yarısı mənə eşq elan edib".

**Samirə**

# Şəkidə xan qəbri tapıldı



## Qəbir tam açıldıqdan sonra kimə məxsus olduğu dəqiq bilinəcək

"APA TV" xəbər verir ki, Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmasına başlanan Xan məscidinin daxilində aparılan qazıntı işləri zamanı məscidin mehrabının içində yeni qəbir aşkarlanıb.

Yeni tapılan qəbrin Məhəmmədhüseyn xana aid olduğu güman edilir. Qəbir tam açıldıqdan sonra kimə məxsus olduğu dəqiq bilinəcək. Əslən Şəkidən olan ədəbiyyatşünas alim Salman Mümtazın yazdığına görə, Məhəmmədhüseyn xan məscidin mehrabı içində dəfn edilib.

*Qeyd edək ki, XIX əsrdə Birinci Cümə məscidi kimi tanınan və hazırda Şəki Xan məscidi adlandırılan məscid Şəki xanlarından olan Məhəmmədhüseyn xan tərəfindən 1768-1770-ci illərdə inşa edilib. 1850-ci illərdə Şəkidə baş verən güclü yanğınlar səbəbindən Şəki bazarı, Cümə məscidi və məscid ətrafındakı evlər yanğına məruz qalıb. Yanğından sonra Mustafa ağanın atası Kərim ağa Şəkixanov məscidi bərpa edib.*

# Yük gəmisi yandı





## *Dəniz heyvanları tələf olub*

Şri-Lankada dalğalar yüzlərlə dəniz heyvanının cəsədini sahilə çıxarıb. İlkin araşdırmalara görə, bu kütləvi qırğının səbəbi təhlükəli kimyəvi maddələr daşıyan yük gəmisinin bir neçə həftə əvvəl batmasıdır.

"Şərq" "milliyet.com"a istinadən xəbər verir ki, "X-Press Pearl" yük gəmisi Kolumbiya sularında günlərlə yandıqdan sonra batıb. Bugünədək dalğaların sahilə vurub çıxardığı dəniz heyvanları arasında 176 dəniz tısbağası, 20 delfin və 4 balina cəsədi var. "X-Press Pearl" 278 ton gəmi yanacağı və 50 ton qaz yağı ilə yanaşı, 25 ton nitrik-asit (azot turşusu) və kosmetika sənayesində istifadə edilən digər kimyəvi maddələr daşıyırmış. Bunlar geniş bir ərazidə ətraf mühiti zəhərləyəcək maddələrdir. Şri-Lanka rəsmiləri ilin bu fəslində dəniz heyvanlarının kütləvi tələf olmasının normal şərtlərlə izah edilməyəcəyini bildirir. Bunun yalnız, zəhərli kimyəvi maddələrin dənizə axması nəticəsində mümkün olacağını söyləyirlər. Rəsmilər hesab edir ki, dəniz heyvanlarının bu formada tələf olmasının əsas səbəbi batan gəmidəki zərərli maddələrin dəniz suyuna qarışmasıdır. Dəniz heyvanlarından başqa, Şri-Lankanın ən təmiz və gözəl sahil zolağına malik bölgəsində benzin axıntısı, gəmi qalıqları, plastik kütlə qırıqları da çoxalıb. Şri-Lanka hökuməti yanğın söndürmə məsrəfləri, 50 min balıqçının gəlir mənbələrinin itirilməsinə qarşılıq olaraq gəmi sahibi şirkətə 40 milyon dollarlıq təzminat davası açıb. Qeyd edilir ki, batmış gəminin kapitanı rusiyalıdır. Onunla birlikdə gəmi heyətinin 14 üzvü də məhkəmə qarşısına çıxacaq.

**Məlahət**

# Bakcell abunəçiləri "Vətəndaş" tipli "Asan İmza" xidmətindən pulsuz istifadə edəcək

Bakcell abunəçiləri 1 iyul 2021-ci il tarixindən başlayaraq "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqını ödəməyəcəklər.

Bu imkandan 20 iyun 2020-ci il tarixindən xidmətə qoşulan vətəndaşlarla yanaşı, qeyd olunan xidməti 1 iyul 2021-ci il tarixindən əldə edən bütün vətəndaşlar yararlana biləcəklər. Xatırladaq ki, "Vətəndaş" tipli "Asan İmza" xidməti üçün aylıq abunə haqqı, 2.50 AZN təşkil edirdi.

Xüsusilə vurğulanmalıdır ki, "Asan İmza" xidmətini mövcud olan mobil nömrədə aktivləşdirmək olar və yeni nömrənin əldə edilməsinə ehtiyac yoxdur. "Asan İmza" xidmətinin aktivləşdiyi nömrədən istifadə etdikdə, həmin nömrəyə dövlət qurumları və digər elektron xidmət təchizatçılarından birbaşa olaraq, vacib ismarıcları qəbul etmək mümkün olacaq.

Bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqəsi ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada "Asan İmza" xidmətini aktivləşdirərək "Asan İmza" SİM kartını əldə etməlidirlər. Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır.

"Asan İmza" xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər.

*Qeyd edək ki, "Vətəndaş" tipli "Asan İmza" xidmətini tamamilə ödənişsiz əsaslarla əldə edən abunəçilər Azərbaycanda dövlət və özəl qurumlar tərəfindən təqdim olunan 1000-dən çox elektron xidmətdən yararlanmaq imkanına malikdirlər.*

# Bu da dəniz avtomobili...

## Görənlər heyran qaldı, sifarişçilər növbəyə dayanıb

*(Əvvəli səh: 15-də)*





**Onlar çalışdıqca ətrafdakıların baxışları da müsbətə doğru dəyişib və belə bir maşının ərsəyə gələcəyinə inam artıb.**

Əsası gəmi mexanizmi üzərində qurulan, xarici görünüşcə isə avtomobil olan dəniz maşınının su üzərində üzə biləcəyinə inanmayanlar da olub. Nəhayət, dəniz maşını suya salınıb hərəkət etdirildikdə insanlar gördüklərinə heyran qalıb. İndi bu dəniz maşınına sahib olmaq istəyənlərin sayı hər gün artır. Sosial mediadakı paylaşımlara da çoxlu rəylər yazılır, bəziləri görüntülərin fotomontaj olduğunu belə düşünür. Amma bu, bir gerçəkdir. Bugünədək 28 "Jetcar" istehsal edilib. Hazırda bu dəniz maşınlarından Misir, Avropa ölkələri, Rusiyada istifadə olunur. **F.İşlər dəniz maşınının getdikcə daha da təkmilləşəcəyini deyib:** "istəyirik, maşınımız həm suda, həm də quruda hərəkət etsin. Bunun üçün dəniz maşınına təkərlər əlavə edəcəyik. Təkərlər, eynən təyyarələrdə olduğu kimi bağlanıb-açılan olacaq. Dənizdə bağlanacaq, quruda açılacaq. Dəniz maşını suda avtomobil sürmə hissiyyatı yaşadır. Əcaib bir duyğudur. Sanki avtomobil yolunda suyun üzəri ilə hərəkət edirsən. Maşını idarə edənlər çox böyük adrenalin duyğusu yaşayır".

**Məlahət**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611** SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944 VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1180



# Bir gecədə 12 trilyon dollar qazandı

## Ancaq 20 yaşlı tələbənin sevinci qısa sürüb

**ABŞ-da 20 dollar kriptovalyuta alan tələbənin pulu bir gecədə 1.2 trilyon dollara qədər artıb.**

"Şərq" "Haberglobal.com"a istinadən xəbər verir ki, bir gün ərzində dünyanın ən varlı insanı olan Kristofer Villiamson əsl həqiqəti öyrənəndə isə böyük məyusluq keçirib.

**K.Villiamson:** "Əvvəlcə hələ də yuxuda olduğumu düşündüm və telefonumu yerinə qoydum. Sonra xəyal qurmadığımı anladım və yenidən telefonumu götürüb yoxladım. Sevindiyimdən və həyəcanlandığım üçün yatağımdan yıxıldım". Ancaq 20 yaşlı tələbənin sevinci qısa sürüb. Villiamson kripto sərvətini başqa bir hesaba köçürməyə çalışanda acı həqiqəti öyrənib. Qiymət artımının sistemdəki bir səhv səbəbindən olduğu meydana çıxıb. Şirkət hadisə ilə əlaqədar açıqlamasında sistemdə səhvlik olduğunu bildirib.

**Yeganə**

# Pişiklərin küçəyə çıxarılmasına qadağa qoyub

## Qaydaya əməl etməyən heyvan sahibləri 91 dollar cərimələnəcək



**Avstraliyada pişiklərə küçəyə çıxmaq qadağası qoyulub.**

"Şərq" "Ntv.com"a istinadən bildirir ki, oktyabrın 1-də qüvvəyə minəcək qadağa saatı pişiklər və digər ev heyvanlarının qorunmasına yönəlib. Evlərindən ilk dəfə çıxan pişiklərə görə sahiblərinin 91 dollar, sonrakı komendant saatı pozuntularına görə isə 545 dollar cərimə ediləcəyi bildirildi. Yerli hökumət bölgədə qeydiyyatda olan 7000 ev pişiyinin küçədə gəzməməli olduğunu, ancaq yaşayış bağında gəzə biləcəyini, lakin çölə çıxma bilməsinlər deyə çəpərlər tikilməsinin vacibliyini qeyd edib. Bəzi ekoloqlar tərəfindən müsbət qarşılanan qərar sakinlərin reaksiyası ilə qarşılanıb. Sakinlər isə pişiklərini bağda saxlamağa çalışdıqlarını, ancaq bəzi hallarda qonşularının bağçasına və ya küçəyə qaçdıqlarını söyləyiblər. Bu baxımdan tətbiq olunan cərimələrlə razılaşmayıblar.

**Yeganə**

# Hamilə olduğunu bilmədi

## Qadın bir ildə 4 uşaq dünyaya gətirib



**31 yaşlı britaniyalı Cessika Pritçard bir il ərzində 4 uşaq dünyaya gətirib.**

O, üçüncü hamiləliyindən xəbərsiz olub. 2020-ci ilin mayında Pritçardın qızı dünyaya gəlir. 5 ay sonra qadın yenidən hamilə qalır. Lakin onun hamilə olmasından xəbəri olmur. Hamiləliyin 4-cü ayında təsadüfən qarnında narahatlığa görə USM müayinəsinə gedən qadına üçəmə hamilə olduğu bildirilir. Həmin vaxt ölkədə pandemiya idi.

2021-ci ilin aprelində onların 2 qızı, bir oğlu dünyaya gəlir. Çoxuşaqlı ananın sözlərinə görə ona bu qədər uşağa baxmaq çətin deyil, çünki özü ibtidai sinif pedaqoqudur. /medicina.az




# Bu da dəniz avtomobili...

## Görənlər heyran qaldı, sifarişçilər növbəyə dayanıb







**"Anadolu" agentliyinin xəbərinə görə, Türkiyədə avtomobil görünüşlü dəniz maşını istehsal edilib.**

Dəniz maşını Antalyada gəmi sənayesində çalışan iş adamı Fərid İşlər tərəfindən istehsal edilib. "Jetcar" adlı dəniz maşını görənlərin marağına səbəb olur. "İnsanlara inanılmaz görünürdü, amma biz bacardıq və istehsal etdik", deyən Fərid İşlər qeyd edib ki, dəniz maşınına bütün Orta Şərqdən hazırda böyük tələbat var. Dəniz maşınının istehsalçısı təkcə Fərid İşlər deyil. Onlar üç dostdur. Manavgat bölgəsində şirkət qurub, "Yetcar"ın istehsalına başlayıblar. Misirli ortaqları ilə bu ölkədə fabrika açaraq Orta Şərqə istiqamətlənməyi hədəfləyirlər. Fərid İşlər 28 il gəmi sənayesində çalışıb. İki il əvvəlsə dostlarıyla su üzərində hərəkət edən maşın istehsal etmək fikrinə düşüblər. Sxem qurublar, texniki məsələləri icra ediblər.

*Davamı səh:15-də*

**Məlahət**

# Ağızda əriyən vaksin hazırlandı!



**Koronavirusa qarşı ağızda əriyən peyvənd hazırlanıb.**

Kanadalı alimlər bununla bağlı çalışmaların aparıldığını deyiblər.

Araşdırmada iştirak edən Kanada biotexnoloji şirkətin baş direktoru Mark Upsdell lent şəklində olan yeni vaksinin daha əlçatan olacağını deyib:

"Kovid-19-a qarşı mübarizədə istifadə olunan Pfizer və Moderna kimi peyvəndlər daima 15 ilə 80 dərəcə arasında soyuqda qalmalıdır. Komandamızın hazırladığı yeni vaksin isə 40 dərəcəyə qədər effektlidir. Bu isə oyunun qaydalarını dəyişir. Dünyadakı ölkələrin 60 faizi (və ya daha çoxu) isti zonadadır. Bu ölkələri nəzərə alaraq, soyuq ortama ehtiyac olmadan həmin ölkələrə də peyvənd göndəriləcək. Bu vaksinləri zərf də belə göndərmək mümkün olacaq. Daşınma xərcləri isə çox aşağı olacaq". *(medicina.az)*

*Qeyd edək ki, mütəxəssislər heyvanlar üzərində aparılan ilkin sınaqdan müsbət nəticələr əldə etdiklərini bildiriblər. Hazırda isə ikinci mərhələnin sınaqları davam etdirilir.*



# Coli özündən 15 yaş kiçik müğənni ilə sevgilidir?

**46 yaşlı Hollivud ulduzu Ancelina Coli Los-Ancelesdəki restoranların birində 31 yaşlı The Weekend təxəllüslü müğənni Abel Makkonen Tesfaye ilə nahar edərkən görüntülənib.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, bəzi mənbələr görüşdən sonra onların eşq yaşadığı ilə bağlı məlumatlar yayıb.

Aralarındakı 15 yaş fərqi səbəbindən bu münasibət hər iki məşhurun pərəstişkarları tərəfindən müsbət qarşılanmayıb.

*Qeyd edək ki, Colinin keçmiş həyat yoldaşı Bred Pitt məşhur müğənni-aktrisa Andra Deylə sevgilidir.*